Azərbaycan Respublikası Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: İbtidai sinif müəllimliyi



# VALİDEYN VƏ ONU ƏVƏZ EDƏNLƏRLƏ ƏMƏKDAŞLIĞIN HƏYATA KEÇİRİLMƏSİ

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəllif:** İlham Cavadov

**Modul üzrə məsləhətçi:** Mehparə Əhmədova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT


**ƏSAS ANLAYIŞLAR** ........ **7**

**GİRİŞ** ........ **9**

**MODULUN SPESİFİKASİYASI** ........ **10**

**TƏLİM NƏTİCƏSİ 1: UŞAĞIN İNKİŞAFI İLƏ BAĞLI VALİDEYN VƏ YA ONU ƏVƏZ EDƏNLƏRLƏ BİRGƏ FƏALİYYƏTİ HƏYATA KEÇİRMƏK** ........ **11**

1.1. Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə işin aparılması yollarını izah edir ........ 12

1.1.1. Uşaq tərbiyəsinə dair işin aparılması ........ 12

Tələbələr üçün fəaliyyətlər ........ 16

Qiymətləndirmə ........ 17

1.2. Uşağın sosial-emosional inkişafı və fiziki durumunu müəyyən edir ........ 18

1.2.1. Uşağın sosial-emosional inkişafı və fiziki durumu ........ 18

1.2.2. Uşaqların sosial-emosional bacarıqlarının inkişafına təsir edən amillər ........ 18

1.2.3. Uşaqların sosial-emosional durumunun müəyyən edilməsi ........ 20

1.2.4. Valideynlərlə söhbətin təşkili ........ 25

1.2.5. Uşaqların fiziki inkişafına təsir edən amillər ........ 26

1.2.6. Uşağın fiziki inkişafının müəyyən edilməsi ........ 28

Tələbələr üçün fəaliyyətlər ........ 34

Qiymətləndirmə ........ 35

1.3. Uşağın sosial-emosional inkişafı, fiziki durumu və problemləri barədə valideyn və onu əvəz edənləri müvafiq qaydada məlumatlandırır ........ 36

1.3.1. Uşağın durumu və problemləri barədə məlumatlandırma ........ 36

1.3.2. Uşaqların sosial-emosional problemlərinin yaranma səbəbləri ........ 36

1.3.3. Uşaqların sosial-emosional inkişafına dair valideynlər üçün tövsiyələr ........ 39

1.3.4. Uşaqların fiziki inkişafına dair valideynlər üçün tövsiyələr ........ 41

Tələbələr üçün fəaliyyətlər ........ 44

Qiymətləndirmə ........ 45

1.4. Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını təsvir edir ........ 46

1.4.1. Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin həlli ........ 46

1.4.2. Uşağın inkişafında qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları ............ 46
Tələbələr üçün fəaliyyətlər............ 50
Qiymətləndirmə ............ 51
**TƏLİM NƏTİCƏSİ 2: UŞAĞIN TƏLİMİ İLƏ BAĞLI VALİDEYN VƏ YA ONU ƏVƏZ EDƏNLƏRLƏ VAHİD TƏLƏBKARLIĞA DAİR ƏMƏKDAŞLIQ ETMƏK ............ 53**
2.1. Məktəbin qaydalarını valideyn və ya onu əvəz edənlərə ətraflı şəkildə izah edir ............ 54
2.1.1. Məktəb qaydaları ............ 54
2.1.2. Məktəbin daxili nizam-intizam qaydaları ............ 54
Tələbələr üçün fəaliyyətlər............ 58
Qiymətləndirmə ............ 59
2.2. Vahid tələbkarlıq qaydalarını izah edir ............ 60
2.2.1. Vahid tələbkarlıq qaydaları ............ 60
2.2.2. Məktəbin vahid tələbkarlıq qaydaları ............ 60
Tələbələr üçün fəaliyyətlər............ 65
Qiymətləndirmə ............ 66
2.3. Valideyn və ya onu əvəz edənlərlə peşəkar ünsiyyət qurmaq bacarıqları nümayiş etdirir ............ 67
2.3.1. Peşəkar ünsiyyət bacarıqları ............ 67
2.3.2. Müəllimin peşəkar ünsiyyət bacarıqları ............ 67
2.3.3. Müəllimin valideynlərlə ünsiyyət vasitələri ............ 69
Tələbələr üçün fəaliyyətlər............ 72
Qiymətləndirmə ............ 73
2.4. Valideyn və ya onu əvəz edənlərlə əməkdaşlıq zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması yollarını izah edir ............ 74
2.4.1. Ziddiyyətlərin aradan qaldırılma yolları ............ 74
2.4.2. Valideyn-müəllim əməkdaşlığında yaranan ziddiyyətlər və onların həll yolları ............ 74
Tələbələr üçün fəaliyyətlər............ 78
Qiymətləndirmə ............ 79
**ƏDƏBİYYAT SİYAHISI ............ 80**

# ƏSAS ANLAYIŞLAR

**Bilik –** insanın mənimsədiyi informasiya massivi. Koqnitiv psixologiyada biliyin faktiki, konseptual, prosedur, metakoqnitiv formaları mövcuddur.

**Davranış –** hərəkət, rəftar, davranma tərzi. Davranış canlı varlıqların ətraf mühitlə qarşılıqlı əlaqəsindən ibarətdir. Bu əlaqə orqanizmin daxili (psixi) və ya xarici (hərəki) fəallığı vasitəsilə ifadə olunur.

**Emosionallıq –** insanın emosiya və hisslərinin keyfiyyət və dinamikasını, məzmununu müəyyən edən xüsusiyyət. Emosionallığın mahiyyəti subyekt üçün xüsusi əhəmiyyət daşıyan hadisə və situasiyaların inkişafından ibarətdir. O, şəxsiyyətin əsas xüsusiyyətləri, əxlaq normaları, motivasiya sahəsi, dünyagörüşü, dəyər və meyli ilə bağlıdır.

**Eqosentrizm** (lat. Ego - "mən", centrum - "mərkəz") - fərdin öz nəzər nöqtəsindən başqa hər hansı digər fikri qəbul etməməsi.

**Fəaliyyət –** insanın tələbat əsasında əmələ gələn, yüksək mərhələ kimi şüur tərəfindən tənzim olunan spesifik zahiri fəallığı, başqa sözlə, aktivliyin zahiri forması. Onun özünəməxsus motivasiya, məqsəd və instrumental əsasları vardır.

**Fiziki tərbiyə –** insanın fiziki inkişafına, sağlamlığının möhkəmlənməsinə, yüksək əmək qabiliyyətinin və daimi fiziki inkişafına tələbat yaranmasına yönəlmiş təkmilləşmə sistemi.

**Xarakter –** şəxsiyyətin fəaliyyəti və ünsiyyətində formalaşıb təzahür edən, ancaq ona məxsus davranış tərzini şərtləndirən sabit fərdi xüsusiyyətlərin məcmusu.

**İdrak –** bilmə, dərk etmə qabiliyyəti. İdrak mənəvi fəaliyyət olub, onun məzmununu əvvəlki nəsillərin əldə etdiyi nailiyyətlərdən istifadə etməklə yeni biliyin istehsalı təşkil edir.

**İntellekt –** fərdin əqli qabiliyyətinin nisbətən sabit strukturu. Müasir psixologiyada intellektin strukturu müxtəlif aspektlərdə öyrənilir.

**İnkişaf –** kəmiyət-keyfiyyət dəyişikliyini nəzərdə tutan hərəkət. Adi hərəkətdən fərqli olaraq, inkişaf, dialektik mənada, daha üstün səviyəyə qalxmaqdır, təkmilləşməkdir.

**İstedad –** 1) fəaliyyəti müvəffəqiyyətlə icra etmək üçün imkan verən qabiliyyətlərin keyfiyyətcə özünəməxsus uzlaşması; 2) ümumi qabiliyyətlər intellekt anlayışının sinonimi kimi də işlədilir.

**Rejim –** bu və ya digər məqsədlə müəyyən edilmiş qaydalar, tədbirlər sistemi.

**Sosial normalar –** cəmiyyətdə, yaxud qrupda insanların qarşılıqlı münasibətlərini tənzimləyən qəbul olunmuş davranış qaydaları.

**Tədris proqramı –** hər hansı tədris fənni üzrə təhsilin əsas məzmununu, şagirdlərin mənimsəyəcəkləri zəruri bilik, vərdiş və bacarığın həcmini müəyyənləşdirən, həmçinin bölmə və məzmununu tədris ili üzrə bölüşdürən sənəd.

**Təhsil –** təhsil müəssisələrində verilən, tərbiyə və inkişaf imkanlarına malik olan, bilik, bacarıq və vərdişlər sistemi.

**Təhsil müəssisəsi –** müvafiq təhsil proqramları əsasında təhsil prosesini həyata keçirən və məzunlara müvafiq təhsil haqqında dövlət sənədi verən qurum.

**Təfəkkür –** cism və hadisələrin mahiyyətini, onların arasında əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesi.

**Tərbiyə –** insanın şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına, müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü peşəkar fəaliyyət.

**Ünsiyyət –** birgə fəaliyyət tələblərindən irəli gələrək insanlar arasında münasibətin yaradılması və inkişaf prosesi. Eyni zamanda iki və daha artıq adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədi ilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsir fəaliyyəti.

**Vərdiş –** insanın təlim və iş prosesi dövründə qazandığı, təkmilləşdirdiyi və lazım olan anda asanlıqla tətbiq edəbildiyi avtomatlaşmış hərəkətlər.

# GİRİŞ

Bu modul ümumi təhsil məktəblərində valideyn və ya onu əvəz edənlərlə əməkdaşlığın həyata keçirilmə yolları, forma və metodları geniş şəkildə izah edir.

İki təlim nəticəsi əhatə olunan modulda hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmışdır. Təhsilalanların verilən nəzəri-pedaqoji məzmunu möhkəm mənimsəməsi üçün xüsusi sistem müəyyənləşdirilmişdir. Hər meyar üzrə "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanların məzmunu hansı səviyyədə qavradığını dəyərləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

Birinci təlim nəticəsi ümumtəhsil məktəblərində çalışan ibtidai sinif müəllimlərinin dərs dediyi şagirdlərin inkişafı ilə bağlı valideyn və ya onu əvəz edənlərlə birgə fəaliyyəti həyata keçirməyin yolları, onlarla aparılan işin forma və metodları təsvir edilir.

İkinci təlim nəticəsi səmərəli təlim mühitinin təşkili baxımından məktəbin daxili nizam-intizam, tələbkarlıq qaydaları barədə valideyn və ya onu əvəz edənlərin məlumatlandırılması yollarından bəhs edir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

## MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Valideyn və ya onu əvəz edənlərlə əməkdaşlığın həyata keçirilməsi |
| **Modulun kodu:** | SS-2020-06 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra təhsilalan uşağın inkişafı ilə bağlı valideyn və ya onu əvəz edənlərlə birgə işləməyi, uşaq tərbiyəsinə dair onlarla aparılan işin forma və metodlarından istifadə etməyi, uşaqların sosial-emosional və fiziki durumunu müəyyən etməyi, valideynlərlə peşəkar ünsiyyət qurmağı, onlarla əməkdaşlıq zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması yollarını izah etməyi bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Uşağın inkişafı ilə bağlı valideyn və ya onu əvəz edənlərlə birgə fəaliyyəti həyata keçirmək | 1. Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə işin aparılması yollarını izah edir;<br>2. Uşağın sosial-emosional inkişafı və fiziki durumunu müəyyən edir;<br>3. Uşağın sosial-emosional inkişafı, fiziki durumunu və problemləri barədə valideyn və ya onu əvəz edənləri müvafiq qaydada məlumatlandırır;<br>4. Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını təsvir edir. |
| 2. Uşağın təlimi ilə bağlı valideyn və ya onu əvəz edənlərlə vahid tələbkarlığa dair əməkdaşlıq etmək | 1. Məktəbin qaydalarını valideyn və ya onu əvəz edənlərə ətraflı şəkildə izah edir;<br>2. Vahid tələbkarlıq qaydalarını izah edir;<br>3. Valideyn və ya onu əvəz edənlərlə peşəkar ünsiyyət qurma bacarıqlarını nümayiş etdirir;<br>4. Valideyn və ya onu əvəz edənlərlə əməkdaşlıq zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması yollarını izah edir. |

# TƏLİM NƏTİCƏSİ 1

## UŞAĞIN İNKİŞAFI İLƏ BAĞLI VALİDEYN VƏ YA ONU ƏVƏZ EDƏNLƏRLƏ BİRGƏ FƏALİYYƏTİ HƏYATA KEÇİRMƏK

## 1.1. Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə işin aparılması yollarını izah edir

### 1.1.1. Uşaq tərbiyəsinə dair işin aparılması

Altı yaşlı uşaqlar birinci sinifə gələrkən müəyyən mənəvi keyfiyyətlərə sahib olurlar. Müəllim şagirdlərin hansı mənəvi keyfiyyətlərə sahib olması ilə kifayətlənməməli, bu keyfiyyətlərin formalaşmasının hansı şəraitdə baş verdiyini bilməlidir. Buna görə də müəllimin valideynlərlə əlaqə qurması vacibdir. Çünki ailə uşağın mənəvi keyfiyyətlərinin formalaşmasının ən vacib mənbəyidir.

Valideynlərlə işin təşkili müəllimlik fəaliyyətinin ayrılmaz, vacib, eyni zamanda çətin hissəsidir. Bu işin səmərəli təşkili üçün müəllim və valideynlər birgə çalışmalıdır. Müəllim uşaqların tərbiyəsi məsələlərində valideynlərin yaxın məsləhətçisi kimi ailə mikro mühitinin bir hissəsi olmalıdır. Şagirdin valideynləri də ümumi pedaqoji prosesin iştirakçıları kimi məktəb mikro mühitinin bir hissəsi olmalıdırlar. Ancaq təəssüf ki, həmişə müəllim-valideyn əməkdaşlığının bu səviyyədə qurulması mümkün olmur. Müəllim-valideyn əməkdaşlığı bu qarşılıqlı anlaşma müstəvisində qurulmadıqda uşaqların mənəvi inkişafına pedaqoji rəhbərlik etmək mümkün olmur.

**Uşaq tərbiyəsinə dair müəllimin valideyn və ya onu əvəz edənlərlə aparılan işin formaları**

Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə aparılan işlər xarakterindən asılı olaraq fərdi və qrup formasında təşkil olunur (Sxem 1.1):




**Sxem 1.1.Valideynlərlə aparılan iş formaları**

**Fərdi iş formalarına** müəllimin ailəyə getməsi, valideynin və ya onu əvəz edənlərin məktəbə dəvət olunması, onlar üçün pedaqoji müsahibə, söhbət və məsləhət saatlarının, məsləhət günlərinin təşkili aid edilir (Sxem 1.2).




**Sxem 1.2. Fərdi iş formaların növləri**

Uşaq tərbiyəsinə dair müəllimin ailələrə getməsi, uşağın valideynlərinin məktəbə dəvət olunması sinifdə təlim-tərbiyə işinin düzgün qurulmasında mühüm əhəmiyyət kəsb edir. Sinifdə təlimin düzgün təşkili üçün müəllim həm uşağın ailə vəziyyəti ilə tanış olur, həm də şagirdin təlim-tərbiyəsi barədə onun valideynləri ilə fikir mübadiləsi aparır. Müəllimin ailəyə getməsinin səmərəli keçirilməsi incəlik, nəzakət, yüksək səviyyəli müşahidə, peşəkarlıq tələb edir. Müəllimin ailəyə getmə vaxtını valideynlər müəyyənləşdirir. Müəllim əvvəlcədən şagirdin şəxsi işi ilə tanış olmalıdır. Çünki hər ailədə müəllimin gəlişinə fərqli münasibət olur. Bəzi ailələr müəllimi çox hərarətlə qarşılayır, bəziləri qapının kandarından içəri keçməyi belə təklif etmir. Ancaq münasibətin necə olmasından asılı olmayaraq müəllimlərin ailəyə gedərkən uşaq haqqında zəruri məlumatları öyrənmək üçün iş apardıqlarını qeyd etmələri vacibdir. Buna görə həm müsbət, həm də mənfi təzahürlər uşağın böyüdüyü mikroiqlimi başa düşmək üçün müəyyən dəyər daşıyır. Üstəlik, valideynlərin müəllimə münasibəti müəllimlərin uşağa, ailəyə münasibətinə təsir göstərməməli və alınan məlumatlar məxfi saxlanmalıdır.

Valideynləri məktəbə dəvət edərkən pedaqoji taktikaya riayət etmək, xoş atmosfer yaratmaq, onlarla şagird barədə təkbətək danışmağa ehtiyac duyulduğuna, söhbətin məxfi qalacağına inandırmaq lazımdır. Belə bir görüş bir çox ziddiyyətləri aradan qaldırmaqda həm müəllim, həm də valideynlər üçün faydalı olacaqdır. Müəllim valideynlərin suallarını cavablandırır və tələblərini ifadə edir. Valideynlər müəllimdən faydalı məsləhət və kömək alır, uşağına qayğı göstərildiyinə əmin olurlar. Belə bir söhbət zamanı müəllim, xüsusilə, nəzakətli olmalı, şagirdin çatışmazlıqlarını həddən artıq dilə gətirməməlidir.

Pedaqoji müsahibə, söhbət və məsləhət ibtidai sinif müəlliminin ailə ilə münasibətinin vacib formalarından biridir. O, xüsusilə, müəllimə yeni sinif təşkil edən zaman lazım olur. Öz uşağı haqqında söhbətdən çəkinən valideynin narahatlığını aradan qaldırmaq üçün fərdi söhbətlər aparılmalıdır. Fərdi söhbətə hazırlaşarkən bir sıra sualları əvvəlcədən müəyyən etmək lazımdır. Onların cavabları sinifdə tərbiyəvi işin planlaşdırılmasına kömək edə bilər. İlk fərdi söhbət tanışlıq xarakteri daşımalı, müəllim və valideyn arasında yaxşı əlaqənin yaranmasına şərait yaratmalıdır.

Müəllim imkan yaratmalıdır ki, valideyn onunla qeyri-rəsmi şəraitdə səmimi söhbət etsin və o da peşəkarcasına özü üçün lazım olan aşağıdakı istiqamətlər üzrə qeydlər aparsın:

- Uşağın sağlamlığı;
- Onun həvəs və maraqları;
- Ailədə ünsiyyət zamanı uşağın üstün tutduğu amillər;
- Davranış reaksiyaları;
- Xasiyyətindəki fərqli xüsusiyyətlər;
- Oxumağa sövq edən motivlər;
- Ailənin mənəvi dəyərləri.

Pedaqoji müsahibə, söhbət və məsləhət zamanı “Mənim uşağım” adlı aşağıdakı müsahibədən istifadə etmək olar. Valideynlərin köməyi ilə müəllim tərəfindən sualların cavabı yazılır:

1. Uşağın anadan olduğu il;
2. Sağlamlığı haqqında nə demək olar?
3. Onun məktəbə münasibəti necədir?
4. Həmyaşıdları ilə ünsiyyətdə olarkən özünü necə aparır?
5. Tərbiyəsi ilə bağlı hansı çətinliklər var?
6. Bir valideyn kimi müəllimlərin uşağınızın hansı xüsusiyyətlərinə diqqət yetirməsini arzu edərdiniz?

Pedaqoji müsahibə, söhbət və məsləhət ibtidai sinif müəlliminə tərbiyə işini aparmaqda, yenidən qurmaqda əhəmiyyətli kömək göstərir. Səmimi aparılan söhbətdən daha çox münaqişəli situasiyaların qarşısının alınması məqsədilə uşaqlar, valideynlər, müəllimlər və ailələr arasındakı münasibətlərin yaxşılaşması üçün istifadə etmək olar. Valideynin söhbətindən işdə inamlı mühit yaratmaq, münaqişəli situasiyalarda çətin təmas nöqtəsini üzə çıxarmaq üçün istifadə etmək lazımdır. Əgər iştirakçılardan kimsə söhbətlərin açıqlanmasını istəmirsə, bunu iclasda söyləmək olmaz. Söhbət zamanı müəllim daha çox eşitməli, qulaq asmalıdır (öyüd-nəsihət verməməlidir).

**Qrup halında iş formalarına** şagirdlərin tərbiyəsi ilə bağlı valideynlər və ya onu əvəz edənlər ilə sinif valideyn iclasları daxildir.

Sinif valideyn iclasları il ərzində bir neçə dəfə, zərurət yarandıqda ayda bir dəfə də keçirilə bilər. Valideyn iclasları valideynlərə maarifləndirmə məktəbi olmalı, onların pedaqoji dünyagörüşünü genişləndirməli, yaxşı valideyn olmağa sövq etməlidir.

Valideyn iclasında şagirdlərin dərsdəki nailiyyətləri, onların imkanları, sinfin tədris fəaliyyətinin irəliləmə dərəcəsi təhlil edilməlidir. Valideyn iclasları uşağın əldə etdiyi uğurların nümayişinə imkan yaratmalıdır. İclasda söhbət dərsdə alınmış qiymətlərdən deyil, biliyin keyfiyyəti və fərdi güclərin səviyyəsi haqqında olmalıdır. Valideyn iclasları üçün şagirdlərin yaradıcılıq işlərinin, xüsusilə, onların dərsdənkənar fəaliyyətlərinin sərgisi hazırlanmalıdır.

**Uşaq tərbiyəsinə dair müəllimin valideyn və ya onu əvəz edənlərlə aparılan iş metodları**

Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə aşağıdakı iş metodlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir (Sxem 1.3):




**Sxem 1.3. Uşaq tərbiyəsinə dair valideynlərlə aparılan iş metodları**

- **Valideyn-müəllim görüşləri.** Effektiv ünsiyyət üçün müəllim və valideynin bir-biri ilə görüşməsi, məlumatların paylaşması əsas amil kimi götürülür. Məktəb və ailə arasında ikitərəfli, daimi ünsiyyət uşağın inkişafına kömək edən ən əhəmiyyətli amillərdən biridir. Görüşlər müxtəlif mövzulara aid olub, leksiya formatında deyil, dialoq formasında həyata keçirilir. Görüş konstruktiv olmaqla, məlumatların və ideyaların qarşılıqlı paylaşılmasına əsaslanır;
- **Uşağın fəaliyyəti ilə bağlı qeyd, tapşırıq dəftərləri.** Uşağın xüsusi müvəffəqiyyət və davranışlarını qeyd etmək məqsədilə müəllim və valideynlər bir-birlərinə qarşılıqlı olaraq qeyd etmə kartları göndərir. Valideynin hər şagirdin gündəlik tapşırıqları və qeydləri yazacaqları  dəftər tutmaları təmin olunur. Bununla da uşaqların fəaliyyətinin tərəf-müqabillər tərəfindən sistematik izləmə imkanın əldə edirlər;
- **Valideynin gündəliyi.** İl ərzində valideynlərin tədris prosesinə cəlb edilməsi ilə bağlı keçirilən tədbirlərdə şəkillər, videolar çəkilir. Həmin şəkil və videolardan ayrı-ayrı və ya ümumi formatda "slayd-şou" hazırlanaraq valideyn iclaslarında təqdimat edilir. Bu, tədbirlərdə fəal iştirak etmiş valideynlərə də xoş əhval ruhiyyə yaradır, eyni zamanda digər valideynlər də fəallaşaraq sinif tədbirlərinə qoşulmaq üçün həvəslənir;
- **Valideynlər üçün elanlar lövhəsi.** Elanlar lövhəsində tədris prosesində şagirdlərə dəstək olmaq üçün verilən tövsiyələr, şagirdlərin incəsənətlə bağlı əl işləri, həmçinin valideynlər ilə keçiriləcək görüşlərin dəqiq vaxtı/tarixi ilə bağlı məlumatlar yerləşdirilir. Elanlar lövhəsində yerləşdirilmiş məlumatların sistemli olaraq yenilənməsi təmin edilir;
- **Valideyn günlərinin keçirilməsi.** Valideyn günü müəllim tərəfindən ayda və ya həftədə bir dəfə təyin edilir. Bu zaman valideynlər günün istənilən hissəsində məktəbə gedərək, müəllimlər ilə görüşmək və uşaq haqqında ətraflı məlumat almaq imkan əldə edirlər. Hazırlanmış sorğu vasitəsilə valideynlər tərəfindən görüşlərin səmərəliliyi qiymətləndirilir.

## Tələbələr üçün fəaliyyətlər

1. Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə aparılan pedaqoji işin rol və əhəmiyyətini izah edin.
2. Müxtəlif mənbələrdən istifadə etməklə "Valideynlərlə aparılan fərdi iş formaları" mövzusunda geniş təqdimat hazırlayın.
3. Müxtəlif mənbələrdən istifadə etməklə "Valideynlərlə aparılan qrup halında iş" mövzusunda geniş təqdimat hazırlayın.
4. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda olan iş metodlarına dair təqdimat hazırlayın:
   - 1-ci qrup - "Valideyn-müəllim görüşləri";
   - 2-ci qrup - "Valideynlər üçün elanlar lövhəsi";
   - 3-cü qrup - "Valideynin gündəliyi";
   - 4-cü qrup - "Uşağın fəaliyyəti ilə bağlı qeyd və tapşırıq dəftərləri".
5. Qruplara bölünərək aşağıdakı sənədləri hazırlayın:
   - 1-ci qrup - Valideynlərlə fərdi söhbətin planı;
   - 2-ci qrup - Valideyn iclasının gündəliyi;
   - 3-cü qrup - Valideyn iclasının protokolu.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə işin aparılması yollarını izah edir”.**

1. Uşaq tərbiyəsinə dair valideyn və ya onu əvəz edənlərlə aparılan iş metodlarının üstünlüklərini nədə görürsünüz?
2. Valideyn və ya onu əvəz edənlərlə uşaq tərbiyəsinə dair hansı iş formalarından istifadə olunur?
3. Müəllim valideyn və ya onu əvəz edənlərlə uşaq tərbiyəsinə dair fərdi iş zamanı hansı fəaliyyət növlərindən istifadə edir?
4. Müəllim valideyn və ya onu əvəz edənlərlə uşaq tərbiyəsinə dair qrup halında iş zamanı hansı fəaliyyət növlərindən istifadə edir?
5. "Uşaq tərbiyəsinə dair valideynlərlə işin aparılması yolları” mövzusunda referat yazın.

## 1.2. Uşağın sosial-emosional inkişafı və fiziki durumunu müəyyən edir

### 1.2.1. Uşağın sosial-emosional inkişafı və fiziki durumu

Uşağın sosial-emosional və intellektual inkişafı onun fiziki inkişafı ilə bağlıdır. Müxtəlif hərəki bacarıqlar beynin inkişafı üçün əsas rol oynayır. Bu da öz növbəsində uşağın sosial-emosional və intellektual qabiliyyətlərinin vaxtında normal inkişafına kömək edir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və digər mənəvi keyfiyyətlər formalaşır. Uşaqlar oyun, əmək, əməli fəaliyyət və kollektivdə davranış qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Bu dövrdə uşaqlarda böyüklər və yaşıdları ilə ilkin qarşılıqlı fəaliyyətin müxtəlif formaları yaranır. Ünsiyyətin köməyilə uşaqlar birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təsir və anlaşma ilə təmin olunur. Bu baxımdan valideynlərin uşaqların sosial-emosional və fiziki inkişafına təsir edən amillər, onların sosial-emosional və fiziki durumunun müəyyən edilməsinə dair zəruri məlumatlara malik olmaları vacibdir.

### 1.2.2. Uşaqların sosial-emosional bacarıqlarının inkişafına təsir edən amillər

Uşaqların sosial-emosional bacarıqlarının inkişafı bu gün bir çox ölkələrin təhsil sisteminin prioritetinə çevrilmişdir. Bütün yaş qruplarından olan uşaq və gənclərin sosial-emosional bacarıqlarının inkişafı təhsil proqramlarının ana xəttini təşkil edir. Uşaqların sosial-emosional inkişafı dedikdə, ilk növbədə, onların əldə etməli olduğu əsas bacarıqlar (empatiya, əsəb sisteminin idarə olunması və problemlərin həlli) nəzərdə tutulur.

Özünün digərləri ilə qarşılıqlı münasibətini idarə etmək sosial-emosional bacarıq adlanır və bu, insan üçün vacib bacarıqdır. Bu bacarıq mədəni münasibətin qurulması, ünsiyyətin keyfiyyətinin artırılması, ətrafdakılarla effektiv əlaqələrin yaradılması və emosiyalarımızın nəzarətdə saxlanmasına kömək edir.

Sosial-emosional bacarıqlar – intellekt aysberqinin zirvəsidir. İnsan emosiyalarını anlamaq, nəzarətdə saxlamaq, empatiya hissini duymaq (başqa insanın emosional vəziyyəti və yaşantılarını öz vəziyyəti kimi hiss etmək və özünü həmsöhbətinin yerinə qoya bilmək) iqtidarında ola bilirsə, o zaman onun münasibətləri idarə etmək bacarığı dəfələrlə artır. Sosial-emosional bacarıqlar intellektə xas olan digər bacarıqları özündə ümumiləşdirir və özünü müxtəlif formalarda büruzə verir. Məsələn, sosial-emosional bacarıqlara sahib olan insan kollektivi əla idarə edir, empatiya hissi duyur. O, yaxşı bilir ki, öz maraq və ehtiyaclarına insanları inandırmaq, motivasiya etmək üçün nə vaxt məntiqə, nə vaxt nitqə müraciət etmək lazımdır.

İnsanda sosial-emosional bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi asan başa gələn proses deyil. Bu bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi üçün müəyyən qədər vaxt və şəxsi təşəbbüs lazımdır. Sosial-emosional bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi üçün aşağıda qeyd olunan insani keyfiyyətlərə sahib olmaq lazımdır:

- İnsanlara qarşı anlayışlı olmaq;

- Özünü təqdim etmək;
- İstənilən vəziyyətdə təmkinli olmaq;
- Səs tonunu idarə etmək;
- Üzr istəməyi bacarmaq;
- Nəzakətli davranmaq;
- Tənqidə mədəni münasibət göstərmək;
- Komplimenti düzgün qəbul etmək;
- Cəmiyyətdə nüfuzunu qorumaq;
- Hamı ilə rahat ünsiyyət qurmaq;
- Sakitliyə riayət etmək;
- Dinləməyi bacarmaq;
- Ətrafdakıların maraqlarına hörmət etmək.

Sosial-emosional bacarıqları olmayan insan hər zaman bu bacarıqları olan insana güzəştə getmək məcburiyyətində qalır. Keçmişə nəzərən bu bacarıqların adaptasiyası indi daha vacibdir, çünki bu bacarıqlar insan həyatının bütün sahələrini əhatə edir. Sosial-emosional bacarıqlara sahib insanlarda özünə güvən hissi yüksək olur. Bu insanlar cazibədarlığı, xarizmatikliyi, asan tanış olmağı, söhbətciliyi və ziddiyyətləri danışıqla aradan qaldırma bacarığı ilə digərlərindən fərqlənirlər.

Sosial-emosional bacarıqlar və ünsiyyət zamanı əminlik bir-biri ilə sıx bağlıdır. Sosial-emosional bacarıqların olmamasının əsas səbəbi özünə əminliyin olmamasıdır. Ünsiyyət zamanı əminsizlik insanı uğursuzluğa düçar edir. Əgər özünə əminlik olsa, onda kiçik təcrübə ilə özünü başqa cür aparmaq olar - cazibədar və zəkalı olaraq düzgün sözləri seçmək və mükəmməl zarafatlar edərək həmsöhbətinin xoşuna gəlmək mümkündür.

İnsan nə qədər kitab, ağıllı məqalələr oxusa və sosial-emosional bacarıqlar barədə texnika və metodlar bilsə də, tətbiq etmədikcə bu heç bir işə yaramayacaq. Əsas təcrübə çox sayda insanla ünsiyyətdə olmaqdan keçir.

Əgər insan dəyişikliyə ehtiyac duyursa, deməli, buna şüurlu surətdə hazırdır. Ətrafdakı yaxşı sosial bacarıqları olan insanlar ona stimul verə bilər, bunun üçün geniş tədbirlərdə iştirak edərək bu insanlarla tanış olmaq lazımdır. Daim təcrübədən keçirməklə, özündə əminlik yaratmaqla və əks-əlaqə qurmaqla insan 1 ay, bəlkə də, 1 həftəyə öz bacarıqlarının yeni səviyyəsini müəyyən edə bilər.

Kiçik məktəb yaşlı uşaqların sosial-emosional bacarıqlarının inkişafı onların davranışlarına nəzarət etməsi ilə təzahür edir. Onlar daha çox empatiyanı inkişaf etdirir, müsbət dostluq münasibətləri qurur və qoruyurlar. Duyğularını idarə etməyə başlayır və müstəqil olurlar (məsələn, şəxsi əşyalarını qoruyurlar). Doğru və yanlış məlumat əldə edirlər. Ətrafdakıların davranışlarına fikir verməyə başlayır, müxtəlif məqamlarda öz davranışlarını valideynlərinin davranışları ilə uzlaşdırmağa çalışırlar. Onlar müxtəlif perspektivləri başa düşməyə başlayır və valideynlərinin hər problemi həll edə bilməyəcəyini anlayırlar.

Bu yaş qrupuna daxil olan uşaqların sosial-emosional bacarıqlarının inkişafı, əsasən,

onların həmyaşıdlarına uyğunlaşmağa çalışmaları ilə ölçülür. Onlar bəzən çox bacarıqsız olsalar belə, özlərinə güvənirlər. Öz hislərini inkişaf etdirməyə davam edirlər. Məktəb yaşlı uşaqlar duyğuların nə olduğunu yaxşı başa düşür və necə hiss etdiyini müzakirə etməyə başlayırlar. Onlarda simpatiya və empatiya hissi inkişaf edir. Bu xüsusiyyətləri inkişaf edən məktəb yaşlı uşaqlar yaxşı dinləyici və diqqətli müşahidəçi olur, özünün fərqində olur və müsbət tərəfləri düşünməyə üstünlük verirlər.

### 1.2.3. Uşaqların sosial-emosional durumunun müəyyən edilməsi

Lüşer testindən istifadə

21-ci əsrin 50-ci illərində İsveçrə psixoloqu Maks Lüşer tərəfindən hazırlanmış, onun adını almış Lüşerin rəngli testi indi həyatın müxtəlif sahələrində istifadə olunan ən məşhur metodlardan biridir. Son zamanlarda Lüşerin rəngli testi şəxsiyyətin emosional durumunun mövcud vəziyyətinin incə nüanslarını müəyyənləşdirmək üçün bir vasitə kimi populyarlıq qazanmışdır. Kiçik məktəbyaşlı uşaqların sosial-emosional durumunun müyyən edilməsində ibtidai sinif müəllimlərinin bu test metodikasından istifadə etmələri məqsədəuyğundur.

Lüşerin rəngli test metodikası - 8 rəngli kartdan (Şəkil 1.1) rənglərin xaraktersitikasından, testin keçirilməsinə dair təlimatdan, test nəticələrinin şərhindən ibarətdir.

Rənglərin xaraktersitikası: material adətən 28 mm x 50 mm ölçüdə kəsilmiş 8 ədəd kvadrat formasında olan kağız kartdan ibarət olur. Əsasən aşağıdakı rənglərdən istifadə olunur:




**Şəkil 1.1. Lüşer testinin kartları**

Maks Lüşerə görə rənglərin xarakteristikasına 4 əsas və 4 əlavə rəng daxildir. Əsas rənglər:

- Göy;
- Yaşıl;
- Qırmızı;

- Sarı.

Optimal vəziyyətdə konflikt olmadıqda əsas rənglər ilk beş yeri tutmalıdır.

Əlavə rənglər:

- Qəhvəyi;
- Bənövşəyi;
- Qara;
- Boz.

Bu rənglər mənfi tendensiyaları - narahatlıq, stress, qorxu, kədər və s. bildirir. Bu rənglərin mənası (əsas rənglərdə olduğu kimi) qarşılıqlı tənzimləmə, mövqelərə görə paylanma ilə müəyyən edilir.

**Lüşer testini keçirilməsi üçün təlimat:**

Lüşerin rəngli testi fərdi və qrup halında keçirilə bilər. Testin keçirilmə müddəti 5-8 dəqiqədir. Qeyd olunan müddət ərzində uşaq iki dəfə test olunur. Rəngli kartlar qarışdırın və rəngli səthi üst tərəfə olmaqla 2 sırada düzülür. Sonra uşaqdan səkkiz rəng arasından ən çox bəyəndiyi rəngi seçməsini xahiş olunur. Eyni zamanda həmin uşağa aydınlaşdırmaq lazımdır ki, o, rəngi məhz rəngə görə ən çox sevdiyi paltarın rəngi və ya göz rəngi ilə əlaqələndirməyə çalışmadan seçməlidir. Beləliklə, uşaq səkkiz rəng arasından ən xoş rəngi seçir, rəngli tərəfini aşağı çevirərək həmin kart kənara qoyulur. Sonra uşaq qalan yeddi rəngdən ən xoşu gəldiyi başqa rəngi seçməyə dəvət edilir. Seçilmiş kartın rəngli tərəfini aşağı çevirib birincisinin sağına qoymaq lazımdır.

Uşağa izah edilməlidir ki, o, ilk seçimindəki düzülüş qaydasını yadına salmamalı və şüurlu şəkildə dəyişdirməməlidir. O, rəngi sanki ilk dəfə seçirmiş kimi seçməlidir. Lüşerin testində ilk seçim arzu olunan vəziyyəti, ikinci seçim həqiqi vəziyyəti xarakterizə edir.

Rənglərin ideal ardıcıllığı belədir: 3, 4, 2, 5, 1, 6, 0, 7.

Maks Lüşerə görə aşağıda göstərilən ilk dörd rəng özündə bir sıra psixoloji ehtiyacları bildirir:

№ 1 (göy) - məmnuniyyət, sakitlik, davamlı müsbət bağlılıq ehtiyacı;

№ 2 (yaşıl) - özünü təsdiqləmə ehtiyacı;

№ 3 (qırmızı) - aktiv hərəkət etmək və uğur əldə etmək ehtiyacı;

№ 4 (sarı) - perspektivə ehtiyac, ən yaxşılarına ümid, xəyallar.

Əsas rənglərin 1–5-ci mövqelərdə yer alması ehtiyacların müəyyən bir səviyyədə qarşılandığı kimi qəbul edilir; 6–8-ci yerdə olduqda isə mənfi hallar səbəbindən hər hansı bir münaqişə, narahatlıq, narazılığın mövcudluğunu göstərir. Rədd edilmiş rəng stress mənbəyi kimi hesab edilə bilər. Məsələn, rədd edilmiş göy rəng narazılıq deməkdir.

**Test nəticələrinin şərhi:**

M.Lüşer aparılmış tədqiqatların 36000-lik nəticələrinə əsaslanaraq seçilmiş mövqelər üzrə nümunəvi xarakteristika vermişdir:

1-ci mövqe məqsədə nailolma vasitəsini göstərir (göy rəngin seçimi sakit, heç bir

təzyiq olmadan hərəkət etməni göstərir);

2-ci mövqe uşağın (subyektin) istiqamətləndiyi məqsədi göstərir;

3-cü və 4-cü mövqelər uşağın olduğu həqiqi vəziyyət və ya vəziyyətin ona göstərdiyi hərəkət kursunu əks etdirir;

5-ci və 6-cı mövqelər rəngə laqeydliyi, ona qarşı neytral münasibəti səciyyələndirir. Onlar sanki uşağın öz vəziyyətini, əhvalını, motivlərini bu rənglərlə bağlamadığını göstərir. Ancaq müəyyən bir situasiyada, bu mövqe rəngin ehtiyat şərhini ehtiva edə bilər, məsələn, göy rəng (istirahət rəngi) bu vəziyyətdə uyğun olmayan kimi müvəqqəti olaraq təxirə salınır;

7-ci və 8-ci mövqelər rəngə mənfi münasibəti, bu rəngdə əks olunan hər hansı bir ehtiyacı, motivi, əhval-ruhiyyəni yatırtmaq istəyini xarakterizə edir.

**Lüşerə görə rəng cütlərinin şərhi.** Vəziyyətlər:

**Birinci rəng göydür.**

“1 və 2” (göy və yaşıl) - məmnunluq hissi, sakitlik, sakit bir mühit istəyi, münaqişələrdə, streslərdə iştirak etmək istəməməsi.

“1 və 3” (göy və qırmızı) - bütövlük hissi, yaxın münasibətlər üçün aktiv və həmişə şüurlu olmayan bir arzu. Başqalarının diqqətinə ehtiyac hissi.

“1 və 5” (göy və bənövşəyi) - kiçik bir narahatlıq hissi, incə bir mühitə ehtiyac hissi, gözəlliyə can atmaq.

“1 və 6” (göy və qəhvəyi) - narahatlıq hissi, tənhalıq qorxusu, münaqişələrdən uzaq olmaq, stresdən qaçmaq istəyi.

“1 və 7” (göy və qara) - mənfi bir vəziyyət, rahatlıq, istirahət istəyi, özündən narazılıq, özünə münasibətdən narazılıq.

“1 və 0” (göy və boz) – yaranmış vəziyyətə mənfi münasibət, stresdən azad olmaq ehtiyacı, rahatlıq, istirahət istəyi.

**Birinci rəng yaşıldır.**

“2 və 1” (yaşıl və göy) – müsbət hal, müvəffəqiyyəti təmin edən fəaliyyətlər və tanınma arzusu.

“2 və 3” (yaşıl və qırmızı) - müvəffəqiyyət qazanmaq üçün fəal bir istək, müstəqil qərarlar qəbul etmək, fəaliyyətdəki maneələri aşmaq istəyi.

“2 və 4” (yaşıl və sarı) - bir qədər narahatlıq, tanınma, populyarlıq, təəssürat yaratmaq istəyi.

“2 və 5” (yaşıl və sarı) - bir qədər narahatlıq, tanınma, populyarlıq, super təəssürat istəyi, hərəkətlərinə, ətrafdakıların göstərdiyi münasibətə, reaksiyalara diqqətin artırılması.

“2 və 6” (yaşıl və qəhvəyi) - narazılıq hissi, yorğunluq, öz əməllərinə ətrafın münasibətinin əhəmiyyətini həddən artıq şişirtmək.

“2 və 7” (yaşıl və qara) - inciklik, qəzəb hissi, sərtlik istəyi, münasibətlərdə nüfuzluluq istəyi.

“2 və 0” (yaşıl və boz) - narazılıq hissi, tanınmaq istəyi, təəssürat yaratmaq istəyi.

**Birinci rəng qırmızıdır.**

“3 və 1” (qırmızı və göy) – işgüzarlıq həyacanı, fəaliyyətə, yeni təəssüratlara, zövqlərə aktiv səy göstərmək.

“3 və 2” (qırmızı və yaşıl) - işgüzarlıq həyəcanı, məqsədə çatmaq üçün fəal səy göstərmək, bütün çətinlikləri dəf etmək, öz fəaliyyətini yüksək qiymətləndirmək istəyi.

“3və 4” (qırmızı və sarı) - bir qədər artan işgüzar həyəcan, həvəs, nikbinlik, təmaslar arzusu, fəaliyyət dairəsini genişləndirmək.

“3 və 5” (qırmızı və bənövşəyi) - artan həyəcan, hər zaman adekvat olmayan həvəs, təəssürat yaratmaq istəyi.

“3 və 6” (qırmızı və qəhvəyi) - mənfi əhval-ruhiyyə, uğursuzluq səbəbi ilə xəyal qırıqlığı, xoş bir vəziyyətin faydalarını itirmək istəməməsi.

“3 və 7” (qırmızı və qara) - mənfi əhval-ruhiyyə, qəzəb, əlverişsiz bir vəziyyəti tərk etmək istəyi.

“3 və 0” (qırmızı və boz) - narazılıq hissi, riskli hərəkətlərə meyillənmə.

**Birinci rəng sarıdır.**

“4 və 1” (sarı və göy) – pozitiv əhval-ruhiyyə, müsbət emosional vəziyyət arzusu, qarşılıqlı təmkinliyə istək.

“4 və 2” (sarı və yaşıl) - əsasən müsbət əhval-ruhiyyə, problemləri həll etməyin yollarını tapmaq istəyi, özünü təsdiqləmək istəyi.

“4 və 3” (sarı və qırmızı) - bir az artan işgüzar həyəcan, daha aktiv olmaq arzusu.

“4 və 5” (sarı və bənövşəyi) - bir az eyforiyaya danmaq, parlaq hadisələr arzusu, təəssürat yaratmaq istəyi.

“4 və 6” (sarı və qəhvəyi) - mənfi əhval-ruhiyyə, kədər və emosional rahatlama və istirahət ehtiyacı.

“4 və 7” (sarı və qara) - çox mənfi bir əhval-ruhiyyə, hər hansı bir problemdən uzaqlaşmaq istəyi, lazımlı, qeyri-kafi həll yollarına meyil.

“4 və 0” (sarı və boz) - mənfi, depressiv durum, xoşagəlməz vəziyyətdən çıxmaq arzusu, bunun həll etməyin yollarının dəqiq bilmək.

**Birinci rəng bənövşəyidir.**

“5 və 1” (bənövşəyi və göy) - qeyri-müəyyən əhval-ruhiyyə, uyğunluq və harmoniya arzusu.

“5 və 2” (bənövşəyi və yaşıl) - ehtiyatlılıq, təəssürat yaratmaq istəyi.

“5 və 3” (bənövşəyi və qırmızı) – müəyyən miqdarda həyəcan, həvəs, təəssürat yaratmaq üçün aktiv bir istək.

“5 və 4” (bənövşəyi və sarı) - həyəcan, xəyal qurmaq, parlaq hadisələrə can atmaq.

“5 və 6” (bənövşəyi və qəhvəyi) - həyəcan, güclü emosional narahatçılıqlara yönəlmə.

“5 və 7” (bənövşəyi və qara) - mənfi hal.

“5 və 0” (bənövşəyi və boz) - gərginlik, qarşıdurmadan, stressdən qorunmaq istəyi.

**Birinci rəng qəhvəyidir.**

“6 və 1” (qəhvəyi və göy) - gərginlik, tənhalıq qorxusu, əlverişsiz bir vəziyyəti tərk

etmək istəyi.

"6 və 2" (qəhvəyi və yaşıl) - narahatlıq hissi, səhv etməmək üçün özünə ciddi nəzarət etmək.

"6 və 3" (qəhvəyi və qırmızı) - emosional rahatlıq üçün aktiv səy göstərmək.

"6 və 4" (qəhvəyi və sarı) - müsbət perspektivlərə inamın itirilməsi, tələsik qərarların verilməsi ehtimalı ("Mənim üçün fərqi yoxdur").

"6 və 5" (qəhvəyi və bənövşəyi) - narazılıq hissi, rahatlığa doğru səy göstərmək.

"6 və 7" (qəhvəyi və qara) - mənfi hal, xəyal qırıqlığı, rahatlıq istəyi, fəallıqdan uzaqlaşmaq istəyi.

"6 və 0" (qəhvəyi və boz) - çox mənfi bir vəziyyət, mürəkkəb problemlərdən uzaqlaşmaq və onlarla mübarizə aparmamaq istəyi.

**Birinci rəng qaradır.**

"7 və 1" (qara və göy) - çox mənfi bir vəziyyət, problemlərdən uzaqlaşmaq istəyi ("kaş ki rahat buraxsınlar").

"7 və 2" (qara və yaşıl) - həyəcan, ətrafdakılara qarşı qəzəbli münasibət, hər zaman adekvat olmayan inadkarlıq.

"7 və 3" (qara və qırmızı) - güclü həyəcan, affektiv hərəkətlər mümkündür.

"7 və 4" (qara və sarı) - çox mənfi bir vəziyyət, ümidsizlik, intihar düşüncələri.

"7 və 5" (qara və bənövşəyi) - gərginlik, harmoniya xəyalları.

"7 və 6" (qara və qəhvəyi) - həyəcan, gerçək olmayan məsələlər təyin etmək, narahat düşüncələrdən, mənfi hallardan uzaq olmaq istəyi.

"7 və 0" (qara və boz) - ümidsizlik, əzab hissi, hər şeyə müqavimət göstərmək istəyi, qeyri-adekvat.

**Birinci rəng bozdur.**

"0 və 1" (boz və göy) - mənfi bir vəziyyət, sakit bir vəziyyət istəyi.

"0 və 2" (boz və yaşıl) - mənfi bir vəziyyət, ətrafdakılardan düşmənçilik hissi və onlardan qorunmaq istəyi.

"0 və 3" (boz və qırmızı) - mənfi hal, başqalarına yüksək tələblər qoymaq, hər zaman adekvat olmayan aktiv fəaliyyət.

"0 və 4" (boz və sarı) - mənfi bir vəziyyət, problemləri həll etmək əvəzinə onlardan uzaqlaşmaq istəyi.

"0 və 5" (boz və bənövşəyi) - narahatlıq və ehtiyatlılıq hissi, bu hisləri gizlətmək istəyi.

"0 və 6" (boz və qəhvəyi) - çox mənfi bir vəziyyət, mürəkkəb, çətin, həyəcanlı hər bir şeydən uzaq olmaq istəyi.

"0 və 7" (boz və qara) - çox mənfi bir vəziyyət, inciklik, təzyiq hissi, adekvat olmayan qərarlar qəbul etmək ehtimalı.

Lüşer testinin nəticələrini təhlil və şərh edərkən uşaq haqqında əldə edilən digər anket, müşahidə və söhbət materiallarının da nəzərə alınması məqsədəuyğundur. Yalnız belə hərtərəfli və müxtəlif metodlarla məlumatın əldə olunması nəticəsində uşağın sosial-emosional və psixoloji xüsusiyyətləri haqqında ciddi bir qərar vermək olar.

Rəng testinin göstəricilərinin (ilk mövqedəki № 6, 7, 0 rənglərinin seçimi) anket və

müşahidə məlumatları ilə üst-üstə düşməsi, uşağın sosial-emosional durumunu daha inamla qiymətləndirməyə imkan verir.

### 1.2.4. Valideynlərlə söhbətin təşkili

Valideynlər və müəllimlər arasında qarşılıqlı güvən hissinə əsaslanan münasibətin qurulması uşaqların sosial-emosional gərginliyinin səbəblərinin tez bir zamanda müəyyən etməyə və aradan qaldırmağa kömək edir.

Valideynlərin fəaliyyətinin refleksiv təhlilini aparmaq üçün müxtəlif iş formalarından istifadə etmək olar. Məsələn, valideynlərə "Uşağın portreti", "Mən bir valideyn kimi" mövzularında esse yazdırmaq məqsədəuyğundur.

Müəllim məktəb psixoloqu ilə birlikdə sosial-emosional problemləri olan uşaqların ailə tərbiyəsinin xüsusiyyətlərini, ətrafdakılara münasibətlərini, özünəinam səviyyəsini və sinifdəki psixoloji iqlimi müəyyənləşdirməlidir. Valideynlərlə danışarkən, yalnız ailədəki münasibətlərin xüsusiyyətlərini yox, həm də evdəki qarşılıqlı əlaqəni, uşağın özünəməxsus reaksiyalarını öyrənməyə çalışmaq lazımdır. Çünki uşağın məktəbdə və evdə davranışı fərqli xarakter daşıya bilər. Valideynlərlə söhbətdə aşağıdakı məqamlara diqqət yetirilməsi məqsədəuyğundur:

1. Yuxu:
   - Uşağın necə yuxuya getməsi: tez və ya ləng, onunla oturulmasını, işığı söndürməməyi tələb etməsi;
   - Necə yatır: möhkəm, sakit və ya hərəkətli; yuxuda danışırmı;
   - Necə oyanır: dərhal və yaxud gec; hansı əhval-ruhiyyədə oyanır.
2. Yemək:
   - Uşağın yeməyə münasibəti, uşağ necə yeyir: iştahla və ya iştahsız; yeməyi seçir ya yox.
3. Qorxu:
   - Uşaqda qorxu hissi varmı, hansı şəraitdə: cəza anında, böyüklər üstünə qışqıranda; səbəbsiz yerə;
   - Uşaqda qorxu necə təzahür edir.
4. Uşaq nəyə sevinir və nədən kədərlənir, nədən inciyir, nədən həyəcanlanır.
5. Uşaq öz təəssüf hissini yaxınlarına bildirirmi?
6. Oyun zamanı onun ən çox hansı emosiyaları üstünlük təşkil edir? Təhsil fəaliyyətində həmyaşıdlarına qarşı mehribandırmı?
7. Uşaq öz maraqlarını hansı şəkildə müdafiə edir? Arqumentlər tapır, yalvarır, tələb edir, tövsiyələr edir, ağlayır və s.
8. Uğursuzluğa və uğura necə reaksiya verir?

Əlbəttə ki, uşağın sosial-emosional inkişafı ilə əlaqəli problemlərin dairəsi daha genişdir, lakin müəllim yuxarıdakı sualların cavablarını şagirdin üzərində apardığı

müşahidələrin nəticələri ilə müqayisə etməklə onun emosional durumu barədə vahid fikir söyləməlidir.

### 1.2.5. Uşaqların fiziki inkişafına təsir edən amillər

Uşağın məktəb təliminə başlaması onun davranış tərzinin dəyişməsi ilə müşahidə olunur. Uşağın səhər tezdən yuxudan durması, təlim yükünün artması, müəllim və sinif yoldaşları ilə yeni qarşılıqlı münasibətlər qurması, onun sinir və digər funksional (qan-damar, mədə-bağırsaq və s.) sistemində gərginliyin artmasına səbəb olur. Bir çox hallarda altıyaşlılar il ərzində məktəb rejiminə uyğunlaşa bilmirlər. Həmin uşaqların tez-tez xəstələnməsi və dərs buraxması halları baş verir. Bu hal ailədə uşaqların fiziki inkişafına kifayət qədər diqqət yetirilməməsinin nəticəsidir. Çünki fiziki inkişaf orqanizmin möhkəmliyi, fəal və gümrah vəziyyətini təmin edir. Kiçik yaşlarından uşağın sağlamlığının möhkəmləndirilməsinin, orqanizminin müqavimətinin yüksəldilməsinin uşaq üçün çox böyük əhəmiyyəti var. Uşaq orqanizmində mühitin əlverişsiz şəraitinə müqavimətin olması üçün valideylər uşağın sağlamlığını, fiziki inkişafını xüsusi diqqətdə saxlamalıdır. Çünki fiziki cəhətdən sağlam olmayan uşaq məktəbdə biliklərin dərk olunmasıda çətinlik çəkir, onun idrak prosesləri (diqqət, qavrama, təfəkkür və s.) zəif inkişaf edir.

Fiziki inkişaf cinsə görə fərqlənir. Qızlar fiziki cəhətdən oğlanlardan tez inkişaf edirlər və onlarda bu inkişaf müddəti daha erkən tamamlanır. Fiziki inkişafda olan fərdiliklər özünü daha çox ibtidai siniflərdə göstərir, daha yüksək səviyyəyə isə orta təhsil müddətində çatır.

Bəzi fərdlərin fiziki inkişaf baxımından geri qalması daha çox özünü sağlamlıq imkanları məhdud olan uşaqlarda göstərir. Belə fərdlər öz fiziki inkişaflarına uyğun olan mühitdə və fərqli təhsil proqramları əsasında tədrisə cəlb olunmalıdırlar.

Fərdin inkişafı irsiyyət və ətraf mühitin qarşılıqlı təsiri ilə həyata keçir. Bu qarşılıqlı təsir davamlı və qalıcıdır. Fiziki inkişafa iki əsas amil təsir edir (Sxem 1.4):

- İrsiyyət;
- Mühit.




**Sxem 1.4. Fiziki inkişafa təsir edən amillər**

İrsiyyət valideynlərdən uşağa genetik olaraq keçən qabiliyyət və xüsusiyyətlərdir. Fiziki inkişafda irsiyyətin rolu böyükdür. Uşaqların çox vaxt lap kiçik yaşlardan valideynlərinə bənzərliyi özünü yeniyetməlik dövründə göstərməyə başlayır.

Mühit həm prenatal dövr, həm də doğuşdan sonra körpənin fiziki inkişafına təsir edən əsas amillərdəndir. Mühit təhlükəsiz olmalıdır. Mühitin təhlükəsizliyi uşaqların inamlı və məsuliyyətli olmalarına və özlərini daha müstəqil hiss etmələrinə kömək edir.

Fiziki inkişaf həyatın müəyyən dövrlərində sürətli davam etsə də, bəzi dövrlərdə passivləşir. Prenatal dövr fiziki inkişafın ən sürətli olduğu dövrdür. Bu dövr müvafiq olaraq körpəlik və yeniyetməlik dövrü ilə əvəzlənir. Bu üç dövrdə uşaqların fiziki inkişafı olduqca sürətlidir. İkinci uşaqlıq dövrü olan 6-11 yaş aralığında fiziki inkişafın sürətində əhəmiyyətli bir azalma olur. Yetkinlik isə fiziki inkişaf tempinin yavaşladığı başqa bir dövrdür.

Bütün inkişaf sahələri bir-biri ilə qarşılıqlı əlaqədədir. Bir inkişaf sahəsindəki dəyişiklik digər inkişaf sahələrində də dəyişikliklərə səbəb olur. Fiziki inkişaf bütün inkişaf sahələrinin başlanğıcıdır. Uşağın fiziki inkişafı onun digər inkişaf sahələrinə təsir göstərir. İnsanın ən sürətli fiziki inkişafı körpəlik və erkən yaşlarda baş verir. Sürətli fiziki inkişafın bu dövrlərində fərdlərin sağlam həyat tərzi sürməsi onların sonrakı həyatının möhkəm təməlinin əsasını təkil edir.

Uşağın fiziki inkişafının normal olması üçün aşağıdakı zəruri şərtlər ödənməlidir (Sxem 1.5):

- Normal və sistemli qidalanma;
- Daimi normal yuxu və istirahət;
- Xəstəliklərdən qorunma;
- Fiziki fəaliyyətlərlə mütəmadi məşğul olma.




**Sxem 1.5. Normal fiziki inkişafın şərtləri**

Fiziki inkişaf özündə uşağın bədən strukturunda kəmiyyət və keyfiyyət dəyişikliklərini ehtiva edir. Kəmiyyət dəyişikliyi çəki və boyun artması kimi ədədlə ifadə olunan artımı müəyyən edir. Keyfiyyət dəyişikliyi quruluş və müxtəlifliyin inkişafını nümayiş etdirir, məsələn, uşağın əzələləri inkişaf edir.

### 1.2.6. Uşağın fiziki inkişafının müəyyən edilməsi

Uşağın fiziki inkişafı onun sosial-emosional və intellektual inkişafına bilavasitə təsir edir. Uşağın təlim prosesindəki nailiyyətinin səviyyəsi onun fiziki inkişafından çox asılıdır. Ona görə də təlim fəaliyyəti məktəblilərin sağlamlığı və fiziki inkişafı ilə sıx əlaqəli şəkildə həyata keçirilməlidir. Xüsusilə, I-II sinflərdə uşaqların sağlamlığına qarşı etinasız münasibət onların uğurlu təlim fəaliyyətində ciddi maneələr yaradır. Fiziki inkişafın ləngiməsi uşağın əqli fəaliyyətinə mənfi təsir göstərir. Fiziki cəhətdən zəif olan uşaq təlim prosesində tez yorulur və onun təlimə həvəsi azalır. Belə uşaqların əhval-ruhiyyəsi aşağı olur və onlar mütəhərrik oyunlara laqeydlik göstərirlər.

İbtidai sinif şagirdlərində skeletin sümükləşməsi, böyüməsi, daxili üzvlər, sistemlər və bütövlükdə orqanizmin inkişafı davam etdiyinə görə məktəbin ibtidai təhsil pilləsində fiziki hərəkətlər və fəal-interaktiv təlimə xüsusi diqqət yetirilməlidir, çünki fiziki və sosial-emosional inkişaf arasında da sıx əlaqə var.

Uşaqların fiziki cəhətdən yaşına uyğun inkişaf etməsi aşağıdakı göstəricilərə əsasən müəyyən edilir:

1. Boy;
2. Bədən kütləsi.

Hər iki göstərici üzrə uşaq məktəbdə və ya qeydiyyatda olduğu poliklinikada ildə iki dəfə müayinə olunmalıdır. Müayinənin nəticəsi “Məktəblilərin fiziki inkişaf standartları və qiymətləndirmə cədvəlləri” sənədi ilə müqayisə edilməli, uşağın fiziki inkişafı müəyyənləşdirilməli, müşahidə olunan problemlər barədə dərhal tədbirlər görülməlidir. Qeyd edək ki, “Məktəblilərin fiziki inkişaf standartları və qiymətləndirmə cədvəlləri”ndə hər yaşa görə oğlan və qızların boy və bədən kütləsinin normal variantlarının hüdudları əks olunmuşdur. Hər beş ildən bir “Məktəblilərin fiziki inkişaf standartları və qiymətləndirmə cədvəlləri” Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin təşkil etdiyi tibbi-pedaqoji komissiya tərəfindən yenilənir.

Aşağıda verilmiş cədvəllərdə oğlan və qızların boy və bədən kütləsinin yaşlara görə normaları təqdim olunur (Cədvəl 1.1, Cədvəl 1.2, Cədvəl 1.3, Cədvəl 1.4 və Cədvəl 1.5):

| Oğlanlar | | Qızlar | |
|---|---|---|---|
| Boy (sm-lə) | Bədən kütləsi (kq-la) | Boy (sm-lə) | Bədən kütləsi (kq-la) |
| - | - | 107 | 16,3-21,5 |
| 108 | 17,2-21,6 | 108 | 16,9-22,1 |
| 109 | 17,7-22,2 | 1 9 | 17,5-22,6 |
| 110 | 18,3-22,7 | 110 | 18,1-23,2 |
| 111 | 18,8-23,2 | 111 | 18,6-23,8 |
| 112 | 19,3-23,8 | 112 | 19,2-24,4 |
| 113 | 19,8-24,3 | 113 | 19,8-25,0 |
| 114 | 20,4-24,8 | 114 | 20,4-25,5 |
| 115 | 20,9-25,3 | 115 | 21,0-26,1 |

| | | | |
|---|---|---|---|
| 116 | 21,4-25,9 | 116 | 21,5-26,7 |
| 117 | 22,0-26,4 | 117 | 22,1-27,3 |
| 118 | 22,5-26,9 | 118 | 22,7-27,9 |
| 119 | 23,0-27,5 | 119 | 23,3-28,5 |
| 120 | 23,5-28,0 | 120 | 23,9-29,0 |
| 121 | 24,1-28,5 | 121 | 24,5-29,6 |
| 122 | 24,6-29,0 | 122 | 25,0-30,2 |
| 123 | 25,1-29,6 | 123 | 25,6-30,8 |
| 124 | 25,7-30,1 | 124 | 26,2-31,4 |
| 125 | 26,2-30,6 | 125 | 26,8-31,9 |
| 126 | 26,7-31,2 | 126 | 27,4-32,5 |
| 127 | 27,2-31,7 | 127 | 27,9-33,1 |
| 128 | 27,8-32,2 | 128 | 28,5-33,7 |

**Cədvəl 1.1. 6 yaşlı məktəblilərdə müxtəlif boyda bədən kütləsinin normal variantlarının hüdudları**

| Oğlanlar | | Qızlar | |
|---|---|---|---|
| Boy (sm-lə) | Bədən kütləsi (kq-la) | Boy (sm-lə) | Bədən kütləsi (kq-la) |
| 109 | 14,6-21,8 | - | - |
| 110 | 15,1-22,3 | 110 | 15,7-21,9 |
| 111 | 15,5-22,6 | 111 | 16,1-22,3 |
| 112 | 16,0-23,2 | 112 | 16,5-22,7 |
| 113 | 16,5-23,7 | 113 | 16,9-23,1 |
| 114 | 16,9-24,2 | 114 | 17,2-23,4 |
| 115 | 17,4-24,6 | 115 | 17,6-23,8 |
| 116 | 17,8-25,1 | 116 | 18,0-24,2 |
| 117 | 18,3-25,5 | 117 | 18,4-24,6 |
| 118 | 18,8-26,0 | 118 | 18,8-25,0 |
| 119 | 19,2-26,5 | 119 | 19,1-25,3 |
| 120 | 19,7-26,9 | 120 | 19,5-25,7 |
| 121 | 20,1-27,4 | 121 | 19,9-26,1 |
| 122 | 20,6-27,8 | 122 | 20,3-26,5 |
| 123 | 23,1-28,3 | 123 | 20,7-26,9 |
| 124 | 21,5-28,8 | 124 | 21,0-27,2 |
| 125 | 22,0-29,2 | 125 | 21,4-27,6 |
| 126 | 22,4-29,7 | 126 | 21,8-28,0 |
| 127 | 22,9-30,1 | 127 | 22,2-28,4 |

| | | | |
|---|---|---|---|
| 128 | 23,4-30,6 | 128 | 22,6-28,8 |
| 129 | 23,8-31,1 | 129 | 22,9-29,1 |
| 130 | 24,3-31,5 | 130 | 23,3-29,5 |
| 131 | 24,7-32,0 | 131 | 23,7-29,9 |
| 132 | 25,2-32,4 | 132 | 24,1-30,3 |
| 133 | 25,7-32,9 | 133 | 24,5-30,6 |
| 134 | 26,1-33,4 | 134 | 24,8-31,0 |
| 135 | 26,6-33,8 | 135 | 25,2-31,4 |
| 136 | 27,0-34,3 | 136 | 25,6-31,6 |
| 137 | 21,5-34,7 | 137 | 26,0-32,2 |
| 138 | 28,0-35,2 | - | - |

**Cədvəl 1.2. 7 yaşlı məktəblilərdə müxtəlif boyda bədən kütləsinin normal variantlarının hüdudları**

| Oğlanlar | | Qızlar | |
|---|---|---|---|
| Boy (sm-lə) | Bədən kütləsi (kq-la) | Boy (sm-lə) | Bədən kütləsi (kq-la) |
| 113 | 14,3-24,0 | 113 | 15,2-22,1 |
| 114 | 14,9-24,6 | 114 | 15,6-22,5 |
| 115 | 15,4-25,1 | 115 | 16,1-23,0 |
| 116 | 15,9-25,6 | 116 | 16,6-23,5 |
| 117 | 16,5-26,2 | 117 | 17,0-23,9 |
| 118 | 17,0-26,7 | 118 | 17,5-24,4 |
| 119 | 17,6-27,3 | 119 | 17,9-24,8 |
| 120 | 18,1-27,8 | 120 | 18,4-25,3 |
| 121 | 18,6-28,3 | 121 | 18,9-25,8 |
| 122 | 19,2-28,9 | 122 | 19,3-26,2 |
| 123 | 19,7-29,4 | 123 | 19,8-26,7 |
| 124 | 20,3-30,0 | 124 | 20,2-27,1 |
| 125 | 20,8-30,5 | 125 | 20,7-27,6 |
| 126 | 21,3-31,0 | 126 | 21,2-28,1 |
| 127 | 21,9-31,6 | 127 | 21,6-28,5 |
| 128 | 22,4-32,1 | 128 | 22,1-29,0 |
| 129 | 23,0-32,7 | 129 | 22,5-29,4 |
| 130 | 23,5-33,2 | 130 | 23,0-29,9 |
| 131 | 24,0-33,7 | 131 | 23,5-30,4 |
| 132 | 24,6-34,3 | 132 | 23,9-30,8 |
| 133 | 25,1-34,8 | 133 | 24,4-31,3 |

| | | | |
|---|---|---|---|
| 134 | 25,7-35,4 | 134 | 24,8-31,7 |
| 135 | 26,2-35,9 | 135 | 25,3-32,2 |
| 136 | 26,7-36,4 | 136 | 25,6-32,7 |
| 137 | 27,3-37,3 | 137 | 26,2-33,1 |
| 138 | 27,8-37,5 | 138 | 26,7-33,6 |
| 139 | 28,4-38,1 | 139 | 27,1-34,0 |
| 140 | 28,9-38,5 | 140 | 27,6-34,5 |
| 141 | 29,4-33,1 | 141 | 28,1-35,0 |
| 142 | 30,0-39,7 | 142 | 28,5-35,4 |
| 143 | 30,5-40,2 | - | - |

**Cədvəl 1.3. 8 yaşlı məktəblilərdə müxtəlif boyda bədən kütləsinin normal variantlarının hüdudları**

| Oğlanlar | | Qızlar | |
|---|---|---|---|
| Boy (sm-lə) | Bədən kütləsi (kq-la) | Boy (sm-lə) | Bədən kütləsi (kq-la) |
| 119 | 17,5-29,0 | 119 | 16,0-29,6 |
| 120 | 18,0-29,5 | 120 | 16,6-30,2 |
| 121 | 18,3-30,0 | 121 | 17,2-30,8 |
| 122 | 19,0-30,5 | 122 | 17,8-30,4 |
| 123 | 19,4-30,9 | 123 | 18,8-32,0 |
| 124 | 19,9-30,4 | 124 | 19,0-32,6 |
| 125 | 20,4-31,9 | 125 | 19,6-33,2 |
| 126 | 20,8-32,3 | 126 | 20,1-33,7 |
| 127 | 21,3-32,8 | 127 | 20,7-34,3 |
| 128 | 21,8-33,3 | 128 | 21,3-34,9 |
| 129 | 22,3-33,8 | 129 | 21,9-35,5 |
| 130 | 22,7-34,2 | 130 | 22,5-36,1 |
| 131 | 29,2-34,7 | 131 | 23,1-36,7 |
| 132 | 23,7-35,2 | 132 | 23,7-37,3 |
| 133 | 24,1-35,6 | 133 | 24,3-37,9 |
| 134 | 24,6-36,1 | 134 | 24,9-38,5 |
| 135 | 25,1-36,6 | 135 | 25,5-39,1 |
| 136 | 25,6-37,1 | 136 | 26,0-39,6 |
| 137 | 26,0-37,5 | 137 | 26,6-40,2 |
| 138 | 26,5-36,0 | 138 | 27,2-40,8 |
| 139 | 27,0-38,5 | 139 | 27,8-41,4 |
| 140 | 27,5-39,0 | 140 | 28,4-42,0 |

| | | | |
|---|---|---|---|
| 141 | 27,9-39,4 | 141 | 29,0-42,6 |
| 142 | 28,4-39,9 | 142 | 29,6-43,2 |
| 143 | 28,9-40,4 | 143 | 30,2-43,8 |
| 144 | 29,3-40,8 | 144 | 30,8-44,4 |
| 145 | 29,8-41,3 | 145 | 31,4-45,0 |
| 146 | 30,3-41,8 | 146 | 31,9-45,5 |
| 147 | 30,8-42,3 | 147 | 32,5-46,1 |
| 148 | 31,2-42,7 | - | - |

**Cədvəl 1.4. 9 yaşlı məktəblilərdə müxtəlif boyda bədən kütləsinin normal variantlarının hüdudları**

| Oğlanlar | | Qızlar | |
|---|---|---|---|
| Boy (sm-lə) | Bədən kütləsi (kq-la) | Boy (sm-lə) | Bədən kütləsi (kq-la) |
| 123 | 17,1-30,2 | 123 | 20,5-33,5 |
| 124 | 17,8-30,9 | 124 | 21,0-34,0 |
| 125 | 18,5-31,6 | 125 | 21,4-34,4 |
| 126 | 19,2-32,3 | 126 | 21,8-34,8 |
| 127 | 19,9-33,0 | 127 | 22,3-35,3 |
| 128 | 20,6-33,7 | 128 | 22,7-35,7 |
| 129 | 21,3-34,4 | 129 | 23,1-36,1 |
| 130 | 22,0-35,1 | 130 | 23,5-36,5 |
| 131 | 22,8-35,9 | 131 | 24,0-37,0 |
| 132 | 23,5-36,6 | 132 | 24,4-37,4 |
| 133 | 24,2-37,3 | 133 | 24,8-37,8 |
| 134 | 24,9-38,0 | 134 | 25,3-38,3 |
| 135 | 25,6-38,7 | 135 | 25,7-38,7 |
| 136 | 26,3-39,4 | 136 | 26,1-39,1 |
| 137 | 27,0-40,1 | 137 | 26,6-39,6 |
| 138 | 27,7-40,8 | 138 | 27,0-40,0 |
| 139 | 26,4-41,5 | 139 | 27,4-40,4 |
| 140 | 29,1-42,2 | 140 | 27,8-40,8 |
| 141 | 29,9-43,0 | 141 | 28,3-41,3 |
| 142 | 30,6-43,7 | 142 | 28,7-41,7 |
| 143 | 31,3-44,4 | 143 | 29,1-42,1 |
| 144 | 32,0-45,1 | 144 | 29,6-42,6 |
| 145 | 32,7-45,8 | 145 | 30,0-43,0 |
| 146 | 33,4-46,5 | 146 | 30,4-43,4 |

| | | | |
|---|---|---|---|
| 147 | 34,1-47,2 | 147 | 30,9-43,9 |
| 148 | 34,8-47,9 | 148 | 31,3-44,3 |
| 149 | 35,5-48,6 | 149 | 31,7-44,7 |
| 150 | 36,2-49,3 | 150 | 32,1-45,1 |
| 151 | 37,0-50,1 | 151 | 23,6-45,6 |
| 152 | 37,7-50,8 | 152 | 33,0-46,0 |
| 153 | 38,4-51,5 | 153 | 33,4-46,4 |

**Cədvəl 1.5. 10 yaşlı məktəblilərdə müxtəlif boyda bədən kütləsinin normal variantlarının hüdudları**

Uşağın fiziki inkişaf göstəriciləri "Məktəblilərin fiziki inkişaf standartları və qiymətləndirmə cədvəlləri"nə əsasən uyğun göstəricilər ilə müqayisə olunur və nəticə aşağıdakı kimi ifadə olunur. Əgər uşağın:

- Boyu yaşa uyğun və bədən kütləsi boya uyğun olarsa – fiziki inkişaf normal sayılır (yaşa uyğun);
- Boyu yaşa uyğun və bədən kütləsi göstərilən rəqəmlərdən kiçik olarsa – kütlə çatışmazlığı vardır;
- Boy yaşa uyğun və bədən kütləsi göstərilən rəqəmlərdən böyük olarsa - kütlə artıqlığı vardır;
- Boy yaşa uyğun ən kiçik göstəricilərdən də aşağıdırsa - boy pozuntusu vardır.

## Tələbələr üçün fəaliyyətlər

1. Sosial-emosional inkişafın mahiyyət və məzmununu izah edin.
2. Sosial-emosional bacarıqları inkişaf etdirmək üçün verilmiş fəaliyyətləri müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında təkmilləşdirin.
3. Sosial-emosional inkişafın inkellektual inkişafa təsirini araşdırın.
4. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda olan iş metodlarına dair təqdimat hazırlayın:
   - 1-ci qrup - "Sosial-emosional bacarıqların inkişafına mane olan xüsusiyyətlər";
   - 2-ci qrup - "Sosial-emosional bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi üçün zəruri olunan insani keyfiyyətlər".
5. "Müvafiq və məhsuldar münasibət qurmaqda sosial-emosional bacarıqların rolu" mövzusunda inşa yazın.
6. Fiziki inkişafa irsiyyətin təsirini araşdırın.
7. Fiziki inkişafa mühitin təsirini araşdırın.
8. Müxtəlif mənbələrdən istifadə etməklə uşağın fiziki inkişafının intellektual inkişafına təsirini araşdırın və təqdimat hazırlayın.
9. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında fiziki inkişaf tempinin sürətli və passiv olduğu dövrləri müəyyənləşdirin və səbəbini izah edin.
10. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda olan iş metodlarına dair təqdimat hazırlayın:
    - 1-ci qrup - "Normal və sistemli qidalanma";
    - 2-ci qrup - "Daimi normal yuxu və istirahət";
    - 3-cü qrup - "Xəstəliklərdən qorunma";
    - 4-cü qrup - "Fiziki fəaliyyətlərlə mütəmadi məşğul olma".

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Uşağın sosial-emosional inkişafı və fiziki durumunu müəyyən edir".**

1. Sosial-emosional bacarıq nəyə deyilir?
2. Sosial-emosional bacarıqlara sahib olmaq üçün zəruri insani keyfiyyətləri sadalayın.
3. Sosial-emosional bacarıqların inkişafı üçün hansı fəaliyyət növlərindən istifadə məqsədəuyğun hesab edilir?
4. Sosial-emosional durumun müəyyən olunması məqsədilə təşkil olunan söhbətdə hansı məqamlara diqqət yetirilməlidir? Niyə?
5. Sosial-emosional bacarıqların inkişafına mane olan xüsusiyyətlər hansılardır? Niyə?
6. Uşağın normal fiziki inkişafını zəruri edən şərtləri sadalayın.
7. Sürətli fiziki inkişaf hansı dövrləri əhatə edir?
8. Fiziki inkişafa təsir edən əsas amillər hansılardır?
9. Fiziki inkişafın neçə növü var və hansılardır?
10. Uşağın fiziki inkişaf səviyyəsi hansı parametrlər üzrə dəyərləndirilir?

## 1.3. Uşağın sosial-emosional inkişafı, fiziki durumu və problemləri barədə valideyn və onu əvəz edənləri müvafiq qaydada məlumatlandırır

### 1.3.1. Uşağın durumu və problemləri barədə məlumatlandırma

Məktəbdə sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin təmin edilməsi, müəllim-şagird-valideyn münasibətlərinin düzgün təşkili, təlimdə yüksək nəticələrin əldə olunması üçün şagirdlərin sosial-emosional və fiziki inkişafının daim diqqət mərkəzində saxlanılması vacibdir. Müəllimlər təlimin keyfiyyətinin yüksəldilməsi məqsədilə şagirdlərin sosial-emosional və fiziki inkişafının dinamikasını kifayət qədər obyektiv və davamlı qiymətləndirilməsinə nail olmalıdırlar. Uşağın inkişafı barədə valideynlər mütəmadi olaraq məlumatlandırılmalıdırlar. Bu, çox vacib şərtdir. Çünki uşağın sosial-emosional və fiziki inkişafında valideynlərin mühüm rolu var.

Sagirdlərin sosial-emosional, fiziki inkişafı və problemləri barədə valideynləri müxtəlif formalarda məlumatlandırmaq olar. Şagirdin sosial-emosional və fiziki vəziyyəti barədə məlumatlar məktəb tərəfindən valideynə elektron poçt vasitəsilə göndərilə bilər. Məktəbin veb səhifəsində hər bir şagird üçün yaradılmış şəxsi səhifədə yerləşdirilə bilər. Hər rübdə bir dəfə “Valideyn bülletenləri” hazırlana bilər. “Valideyn bülletenləri”ndə valideynlərə uşaqlarının sosial-emosional və fiziki inkişafını istiqamətləndirmə ilə bağlı tövsiyələr verilə bilər.

### 1.3.2. Uşaqların sosial-emosional problemlərinin yaranma səbəbləri

Uşağın sosial-emosional inkişafında ailə tərbiyəsinin rolu böyükdür. Ailədə tərbiyə işi düzgün qurulmadıqda uşağın sosial-emosional inkişafında problemlər yaranır. Ailədə tərbiyə işinin düzgün qurulmamasının səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar (Sxem 1.6):




**Sxem 1.6. Ailədə tərbiyə işininin düzgün qurulmamasının səbəbləri**

**Qəbuledilməzlik.** Qəbuledilməzlik açıq və gizli ola bilər. Açıq qəbuledilməzlik uşağın doğuşunun arzuolunmaz olduğu, qız/oğlan uşağının planlaşdırıldığı halda oğlan / qız uşağının dünyaya gəlməsi, uşağın valideyninin gözləntilərinə cavab verməməsi və digər səbəbdən ola bilər. Gizli qəbuledilməzlik daha çətindir. Bu ailələrdə uşaq ilk baxışdan arzuolunandır, ona diqqətlə yanaşırlar, qayğı göstərirlər, amma uşaqla mənəvi əlaqə yoxdur. Bunun səbəbi özünüreallaşdırmaq qorxusu ola bilər. Məsələn, ana uşağını karyerasının inkişafı üçün heç vaxt aradan qaldıra bilməyəcəyi və ömrü boyu dözmək məcburiyyətində olduğu bir maneə hesab edir.

Ana öz problemlərini uşağa istiqamətləndirərək, onun ətrafında emosional bir boşluq yaradır, uşağı özünə qarşı əks münasibət göstərməyə təhrik edir. Bu cür münasibətlərin hökm sürdüyü ailələrdə uşaqlar ya aqressiv, ya da həddindən artıq utancaq, həssas və təmkinli olurlar.

Valideynlər tərəfindən uşağın istənilməməsi, onda sosial-emosional gərginlik yaradır. Onun xarakterində valideynlərə qarşı münasibətində qətiyyətsizlik formalaşır. Valideynlərin uşağa qarşı bu münasibəti onda öz gücünə inamsızlıq, şübhə hissi yaradır.

**Hipersosial tərbiyə.** Buna səbəb valideynlərin yalnış istiqamətləndirilməsidir. Bu valideynlər ideal tərbiyə üçün hər şey etməyə, təkliflər verməyə daim hazırdırlar. Hipersosial valideynlərin uşaqları sanki proqramlaşdırılmışdır. Həddindən artıq intizamlı və icraçı olurlar. Hipersosial uşaqlar daim emosiyalarını, istəklərini boğmağa məcbur olurlar. Bu tərbiyə növü uşaqda zorakı etiraz, aqressiv reaksiya, bəzən travmatik bir vəziyyət nəticəsində özünə təcavüz etmə və ya əksinə, təcridolma, qapalılıq, emosional soyuqluq hissini inkişaf etdirir.

**Narahat və şübhəli tərbiyə.** Valideynlər uşaq doğulan andan onun sağlamlığı və rifahı üçün narahatlıq hissi keçirməyə başlayırlar. Valideynlərin bu cür münasibəti çox vaxt tək uşağı olan ailələrdə və ya uşağın gec dünyaya gəldiyi ailələrdə müşahidə olunur. Nəticədə bu cür tərbiyə olunmuş uşaqlar adi çətinlikləri narahatlıqla qəbul edir, onlarda başqalarına inamsızlıq yaranır. Həmin uşaqlar müstəqil olmur, qətiyyətsiz, utancaq olurlar.

**Eqosentrik tərbiyə.** Uzun müddət yolu gözlənilən ailənin yeganə uşağı valideynlərinin bütün həyatının mənası hesab olunur. Uşaqla bağlı ətrafdakıların fikirlərini valideynlər aqressiv qarşılayır, onlar üçün maraqlı olmur. Belə uşaq qeyri-sabit əhval-ruhiyyəyə malik olur. Onun affektiv təzahürləri ikinci qrupa aid olan uşaqların davranışlarına çox oxşar olur.

Uşaqlarda sosial-emosional problemləri yaradanlardan biri də bəzən müəllimlər olur. Onların şagirlərdən imkanlarından qat-qat artıq davranış və təlim nailiyyətləri tələb etməsi bu problemlərin yaranmasına səbəb olur.

Müəllimin təlim prosesində yaş və fərdi xüsusiyyətləri, potensial imkanları nəzərə almaması şagirdə mənfi emosional vəziyyətlərin yaranmasına səbəb olur. Müəllimin yalnış münasibəti nəticəsində uşaqda məktəb fobiyası (məktəbə getməkdən, lövhədə cavab verməkdən qorxma) yaranır.

Uşaqda sosial-emosional problemlərin yaranmasına təsir edən əsas amillər aşağıdakılardır (Sxem 1.7):

1. Təbii amillər (uşağın temperament tipi);
2. Sosial amillər:
   - Ailə tərbiyəsi;
   - Müəllim-şagird münasibəti.




**Sxem 1.7. Uşaqda sosial-emosional problemlərin yaranmasına təsir edən amillər**

Uşağın sosial-emosional bacarıqlarının inkişaf etdirilməsində çətinliklər çoxdur. Valideynlərin uşağın sosial-emosional inkişafında çətinliklərin yaranma səbəblərini bilməsi çox vacibdir. Validenylərin uşağın sosial-emosional inkişafına mane olan səbəbləri əvvəlcədən bilməsi, qabaqlayıcı tədbirlər görməsi işin səmərəsini daha da artırar. Həmin səbəblərə aşağıdakıları aid etmək olar (Sxem 1.8):




**Sxem 1.8. Uşağın sosial-emosional bacarıqlarının inkişafına mane olan səbəblər**

- **Emosional səbatsızlıq.** Bu neqativ xüsusiyyətlər həmsöhbətini sonadək dinləmədiyi üçün insana sosial bacarıqları inkişaf etdirməkdə mane olur. İnsanın əsəbləşib kükrəməsi, qarşısındakını düşünmədən mühakimə etməsi yaxşı deyil. Buna görə emosional vəziyyətin nəzarətdə saxlanılmasına xüsusi diqqət yetirilməlidir;
- **Qorxu.** Qorxular bütün başlanğıc və sonlar üçün səddir. Sosial-emosional bacarıqların inkişafı zamanı qorxu ən sadə fikirləri belə tormozlayır. Bu da insanın fikirlərini icra etməkdən yayındırır. Ünsiyyətdən qorxan insan hər zaman

digərlərindən geridə qalır, fikirlərini ifadə edə bilmir, düşündüklərini müdafiə etməkdə çətinlik çəkir və ondan lider olmur. Ünsiyyət bacarıqlarını inkişaf etdirmək istəyən insan qorxudan yaxa qurtarmalıdır. Öz hərəkət və sözlərinə qarşı cavabdeh olub cəsarətlə addımlamalıdır;

- **Təkəbbür.** İnsan özünü digərlərindən üstün sayan zaman təkəbbür meydana gəlir. Təkəbbürlü olmaq nə şəxsi, nə dostluq nə də ki, peşəkar fəaliyyətdə heç zaman yaxşı nəticələnmir. Təkəbbürlü insanlardan cəmiyyətdə hər kəs qaçır. Sosial-emosional bacarıqlarınızı inkişaf etdirmək istəyirsinizsə, onda cəmiyyətdə hər kəslə bərabər olmalı, özünüzü heç kəsdən üstün görməməlisiniz;
- **Təcridolunma hissi.** İnsan özünü cəmiyyətdə ikinci dərəcəli hesab edirsə və başqalarını özü ilə müqayisədə daha yaxşı olduqlarını düşünürsə, onda onun sosiallaşması çətinlik yarada bilər. Bu mövqe insanı uğura apara bilməz. Zəif xarakterə malik insanlar belə sosial-emosional bacarıqlarını inkişaf etdirib intellektini yüksəldə və öz həyatının sahibi ola bilərlər;
- **Qətiyyətsizlik.** Müstəqil qərar qəbul edə bilməmək və cəmiyyətdə mövqeyi olmamaq sosial-emosional bacarıqların inkişafına mane olur. Belə insanları idarə etmək asandır. Onlar digərləri tərəfindən idarə olunur və hazırda hakim olan ideologiyanın təsirində olur. Sosial-emosional bacarıqların inkişafına çalışan şəxs öz yolunu çəkməli, öz dünyagörüşünü formalaşdırmalı və qətiyyətini ortaya qoymalıdır;
- **İfrat etibarlılıq.** Məlumatları təhlil etməmək və yaxud təhlil etmək istəməmək, insan haqqında bu qənətə gəlməyə imkan verir ki, o hər kəsə ifrat dərəcədə etibar edir. Ünsiyyətin effektivliyini artıran şərtlərdən birincisi isə hər şeyə şübhə ilə yanaşmaqdır.

Sadalananların hər biri insanın cəmiyyətə uğurla adaptasiya olunmasına imkan verir. Əgər insan sosiallaşmağa qərar veribsə, insanlarla harmonik və məhsuldar münasibət qurmaq, mənəvi rahatlıq tapmalıdır. O, həyatı sadə qəbul etməli, hadisələrə obyektiv yanaşmalı və qorxulardan azad olmalıdır. Bütün bunlar sosial-emosional bacarıqların inkişafına imkan verəcək.

### 1.3.3. Uşaqların sosial-emosional inkişafına dair valideynlər üçün tövsiyələr

Uşaqların müəyyən yaş dövrlərində onlardan gözlənilən sosial bacarıqları nümayiş etdirməsi vacibdir. Sosial-emosional bacarıqların inkişaf mərhələlərində irəliləməyən uşaqlar sonrakı illərdə risk qrupuna daxil olur. Həyat boyu onlar ev və məktəbdə uyğunlaşma problemləri ilə üzləşir və qarşılıqlı münasibətlər, davranış sahələri və əmək fəaliyyətində müxtəlif problemlərlə qarşılaşırlar. Uşaqlarda sosial bacarıqların olmaması onun həmyaşıdları tərəfindən rədd edilməsinə gətirib çıxarır. Uşaqların sosial-emosional bacarıqlarının inkişafına paralel olaraq akademik nailiyyətləri, qarşılıqlı münasibətləri və problem həlletmə bacarıqlarında əhəmiyyətli inkişaf müşahidə edilir.

Ailədə uşağın sosial-emosional bacarıqlarının inkişafını dəstəkləmək vacibdir. Bu təməlin möhkəm bir şəkildə qoyulması effektiv ünsiyyət vasitəsi ilə mümkündür. Effektiv ünsiyyətə malik ailə mühiti sevgi dolu, ittiham və tənqidlərdən azad və duyğuların anlaşıldığı bir ev mühiti olaraq qəbul olunur. İlk illərdə uşağın valideynləri ilə təhlükəsiz və sərbəst əlaqə qura bilməsi və onun sonradan gözlənilən sosial-emosional bacarıqlarının inkişafı üçün sevilən, qorunan, qəbul edilən və anlaşılan hisləri olmalıdır.

Uşaq şəxsiyyətinin inkişafında valideynlər mühüm rol oynayır. Uşaqların sosial-emosional bacarıqlarının inkişafı ilə bağlı aparılmış müxtəlif tədqiqatlarda valideynlərin rolu bu prosesdə xüsusilə qeyd edilir. Uşaqların sosial-emosional bacarıqlarının inkişaf etdirmək üçün valideynlərin aşağıdakı fəaliyyət növlərindən istifadə etməsi məqsədəuyğundur (Sxem 1.9):




**Sxem 1.9. Uşaqların sosial-emosional bacarıqlarını inkişaf etdirən fəaliyyət növləri**

Valideynlərin uşaqları ilə daim **ünsiyyətdə** olması və onların suallarını cavablandırması uşaqlarda sosial-emosional bacarıqların inkişafına müsbət təsir göstərən amillərdəndir. Ünsiyyət uşağın ilk sosial tələbatıdır. Uşaqlıq dövründə bu tələbatın təmin edilməsi uşağın sosial-emosional inkişafına kömək edir, ünsiyyətin olmaması isə bu inkişafı ləngidir. Valideynləri ilə daim ünsiyyətdə olmayan uşaq yaşıdlarından həm fiziki, həm də sosial-emosional cəhətdən geri qalırlar. Uşaq ilə ünsiyyət qurarkən onun emosiyalarını boğmağa çalışmamalı, emosiyalarını düzgün ifadə etməyi öyrətməlidir. Çünki emosiyalar ətrafdakılar ilə qarşılıqlı əlaqə prosesində yaranır. Ona görə də uşağa müəyyən vəziyyətlərə və ətraf mühit hadisələrinə adekvat reaksiya verməyi öyrətmək lazımdır.

Uşaqların **oyunlara** cəlb olunması və oyun prosesində verilən reaksiyalar və alınan zövq onların sosial-emosional inkişafını dəstəkləyir. Süjetli-rollu oyunlar uşaqların sosial-emosional inkişafı üçün vacibdir. Süjetli-rollu oyunlar uşağa hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Uşaq oyun prosesində müəyyən rola uyğun hərəkətlər edir, ananın, həkimin, sürücünün rolunu ifa edir vəonların hərəkətini təqlid edir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti görürlər. Uşaq tikinti materiallarından (böyük və kiçik kərpiclər) süjetli oyunun inkişafı üçün tikinti quraşdırmağa həvəs göstərir. Süjetli-rollu oyunlar uşaqlara hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə baxmaq imkanı verir.

Uşaqları maraqlandıran mövzularda **söhbət** etmək çox vacibdir. Bu addım uşağın duyğularını tanımaq və onun davranışının arxasında hansı emosiyanın olduğunu başa düşməyə kömək edir. Çünki uşağın hislərini başa düşüb duyğularını qəbul etmədikdə onların sosial-emosional inkişafını dəstəkləmək mümkün deyil. Özünün fikirlərini ifadə etməyə başlayan uşaq digər insanın duyğularını anlamağa hazır olur. Bu empatiya

bacarıqlarının inkişafında ilk addımlardan biridir.

Uşaqların sosial-emosional bacarıqlarının inkişafına müsbət təkan verən amillərdən biri də **dinləmə** vərdişidir. Valideynlərin uşağını dinləməyə diqqət etməsi düzgün dinləmə davranışının əldə edilməsində ən vacib amildir. Düzgün dinləmə olmadan uşaqla əks-əlaqə yaratmaq olmaz.

Uşağın sosial-emosional bacarıqlarının inkişafı üçün **nağıl terapiyasından** istifadə etmək məqsədəuyğundur. Nağıl terapiyası uşaqlara özlərini nağıl qəhrəmanları ilə müqayisə etməyə və daxili qarşıdurmaları uğurla həll etməyə imkan verir. Nağıl terapiyası vasitəsilə uşaqlar, tənhalıq, özünəşübhə, günahkarlıq, utancaq hislərin öhdəsindən gəlməyə kömək edən biliklər əldə edirlər. Nağıl terapiyası həm də uşağa emosiyalarını obrazlar vasitəsilə ifadə etməyə imkan yaradır. Başqa sözlə, nağıl terapiyası uşağa özünü və onu əhatə edən dünyanı qəbul etməyə kömək edir.

### 1.3.4. Uşaqların fiziki inkişafına dair valideynlər üçün tövsiyələr

Uşaqları sağlam, fiziki cəhətdən dözümlü böyütmək hər bir ailənin vəzifəsidir. Bu vəzifəni yerinə yetirmək üçün ailədə fiziki tərbiyə düzgün təşkil olunmalıdır. Çünki fiziki cəhətdən tərbiyə etmə xüsusi təşkil olunmuş və məqsədyönlü fəaliyyət olub, uşaqların fiziki inkişafının idarə edilməsini təmin edən prosesdir. Fiziki tərbiyə ümumi tərbiyənin tərkib hissəsidir.

Fiziki tərbiyə insanın fiziki inkişafına xidmət edir. Uşağın fiziki cəhətdən möhkəm, sağlam böyüməsini təmin etmək üçün onun inkişafının anatomik-fizioloji xüsusiyyətlərini bilmək və izləmək lazımdır. Kiçikyaşlı məktəblilərin anatomik-fizioloji inkişafının özünəməxsus keyfiyyətləri var. Bu yaşda orqanizmdə fəal yetişmə prosesi gedir. Belə ki, uşağın çəkisi ayda orta hesabla 200 qram, boyu 0,5 santimetr artır. Hərəkət dairəsi nisbətən yaxşı formalaşır. O, sürətlə yeriməyi, ahəngdar addımlamağı, yüngül sürətlə qaçmağı bacarır. Bu dövrdə uşaqlar sürünmək, tullanmaq, üzmək və s. kimi mürəkkəb hərəkətləri mənimsəyirlər. Onların skeleti, oynaq bağları və əzələləri hələ zəif inkişaf edir.

Uşağın fiziki cəhətən möhkəmliyini və sağlamlığını təmin edən mühüm amillərdən biri də onun əsəb sisteminin qorunmasıdır. Sinifdə şən, çevik, süst, mülayim, mədəni, tərs, kobud, xarici aləmdəki əşya və hadisələrə müxtəlif formada reaksiya verən uşaqlar olur. Onların ətrafdakılara münasibətləri də elə bununla müəyyən edilir. Əsəbi uşaqlar məktəbdə yoldaşları ilə yola getmir, onların diqqəti tez-tez yayınır, nadinclik edirlər. Müəllimin, valideynin belə uşaqlarla sərt rəftarı daha mənfi nəticələrə gətirib çıxarır. Valideyn bunu nəzərə almalı, ailədə uşağın əsəbiləşməsi üçün olan səbəbi aradan qaldırmalı, onu ələ almalı, xoş təəssürat yaratmalıdır. Unutmaq olmaz ki, uşağın bütün həyat prosesləri – tənəffüsü, qan dövranı, həzmetmə prosesi, maddələr mübadiləsi və s. əsəb sistemi tərəfindən idarə olunur.

Uşaqların yaşı artdıqca onların sağlamlığı sahəsində işin gedişi daha ciddi xarakter alır. Bu, get-gedə uşaqların fəaliyyət dairəsinin genişlənməsi və müstəqilliyinin artması ilə bağlıdır. Ona görə də kiçikyaşlı məktəblilərdə aşağıdakı kompleks sağlamlaşdırıcı tədbirlər - qamətin düzgün saxlanması, əsəb sisteminin qorunması, yorğunluğun qarşısının alınması,

zədələnməkdən qorunma üzrə iş ciddi cəhdlə yerinə yetirilməlidir. Bu yaşda özünəxidmət, əmək və şəxsi gigiyena üzrə vərdişlərin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Gün rejiminə riayət olunması da mühüm şərtdir. Kiçikyaşlı uşaqların yuxusu gün ərzində 11,5-12 saat olmalıdır. Ondan 1,5-2 saatını gündüz yuxusu təşkil etməlidir. Narahat yatan uşaqlar başqalarından bir qədər tez yatızdırılmalıdırlar. Yatmazdan əvvəl səs-küylü, hərəkətli oyunlar keçirtmək məsləhət görülmür. Yuxu zamanı isə sakitlik gözlənilməli, gündüz güclü işığın qarşısı alınmalıdır. Havanın temperaturu +16 0C, +18 0C dərəcə olmalı, otağın nəfəsliyi açılmalıdır. Soyuq vaxtda uşağın yuxudan qalxmasına 10-20 dəqiqə qalmış nəfəslik bağlanmalıdır.

Ailədə uşağın sağlamlığı onların gün rejiminin düzgün tərtibindən və ona əməl olunmasından asılıdır. Gün rejimində uşağın vaxtı düzgün bölüşdürülməlidir.

Məktəb dövrü intensiv boy artımı, skeletin və əzələlərin böyüməsi ilə müşayiət olunan dövrdür. Orqanizmin inkişafı, əsasən, bu yaşlardan başlayır. Uşaqların düzgün qidalanması bu prosesdə böyük əhəmiyyət daşıyır. Normal yuxu və balanslaşdırılmış şəkildə qidalanma uşaqların inkişafına müsbət təsir göstərir. Günə səhər yeməyi ilə başlamaq ilkin şərtlərdən biridir. Yaxşı səhər yeməyi uşaqların fiziki inkişafını sürətləndirməklə yanaşı qavrama qabiliyyətini artırır, yorğunluğu aradan qaldırır. 6-10 yaşlı uşaqlar gün ərzində ən azı 2300 kilo kalori qəbul etməlidirlər. Müntəzəm şəkildə fiziki yüklənmələr kaloriyə olan sutkalıq tələbatı ən azı 300 vahidə qədər artırır. Məktəblinin menyusuna mütləq tərkibində zülallar, karbohidratlar və yağlar, amin turşuları, vitaminlər, bəzi yağ turşuları, minerallar və mikroelementlər olan məhsullar daxil olmalıdır. Uşaq orqanizminin tələbatına südün (digər komponentlərilə birgə) tərkibində olan zülal daha çox uyğun gəlir. Məktəb yaşlı uşaqlar üçün südün sutkalıq norması 500 ml-dir (100 qram süd 12 q quru südə və ya 25 q qatılaşdırılmış südə uyğun gəlir). Məktəb yaşlı uşaqların qidalanmasında zülallarla zəngin məhsullardan: yumurta, ət, balıq, qoz, yulaf və qarabaşaq yarmaları üstünlük təşkil etməlidir.

Böyüməkdə olan uşaq orqanizminin kalsiuma və vitamin D-yə ehtiyacı daha çoxdur. Bu baxımdan süd, pendir, kəsmik kimi məhsulların qəbulu vacibdir. Süd və süd məhsulları sümüklərin, diş əzələsinin güclü olması üçün lazımlı kalsium, riboflavin və B 12 mənbəyi hesab edilir. Yumurta zülal mənbəyidir. O, uşaqların zehni inkişafına müsbət təsir göstərir, eləcə də dəmir B qrupu vitaminləri və minerallarla zəngindir. Meyvə və tərəvəzlər A, E, C və B qrup vitaminləri, həmçinin Ca, K, Mg mineralları ilə zəngindir.

Gündəlik qidanın normadan çox və normadan az qəbul edilməsi bir sıra fəsadlara gətirib çıxara bilər. Qidaların normadan az qəbul edilməsi böyümə və inkişafda geriləmə, infeksion xəstəliklərə həssaslıq ilə nəticələnir. Qidaların normadan çox qəbulu isə piylənməyə səbəb olur ki, bu da gələcəkdə hipertoniya, ürək-damar xəstəlikləri, diabet riskini artırır.

Yaş artdıqca, uşaq müstəqilləşdikcə gəzintiyə daha çox vaxt ayrılmalıdır. Uşaq hava soyuq olanda ən azı 4-5 saat açıq havada olmalıdır. Normal havada bu vaxt 7-8 saata qədər artırılmalıdır. Gəzinti uşağın sağlamlığının möhkəmlənməsini, zəruri hərəki fəallığını təmin

edir. Gəzinti zamanı oyun, bəzən uşağın əmək fəaliyyəti təşkil olunmalıdır. Burada məqsəd uşağın hərəkət fəallığını növbələşdirməkdir. Az hərəkət edən uşaqda hərəkət etməyə həvəs oyatmaq, çox hərəkət edən, çevik uşağı isə bəzən sakit oyuna cəlb etmək lazımdır. İsti havada çox hərəkətli oyunda iştirak etmək uşağın yorğunluğuna və zəifləməsinə səbəb ola bilər. İsti havada uşağın əməyə cəlb olunması da məsləhət görülmür. Uşağın əməyinin həcmi, xarakteri, hər hansı əmək fəaliyyətinin növündən, onun istifadə etdiyi alətin sazlığından, təhlükəsizliyindən asılıdır. Uşağa həmin alətdən istifadə etmək qaydası öyrədilməlidir. Dirrikdə, bağda əməyin müddəti 25-30 dəqiqə olmalıdır. Bu zaman uşağın səhhəti və hava şəraiti nəzərə alınmalıdır.

Gəzinti və əmək şəraitinin təhlükəsizliyi təmin edilməlidir. Uşaq hava şəraitinə uyğun geyinməlidir. Qışda havanın temperaturu + 10 0C dərəcədən yuxarı olduqda gəzinti məsləhət görülür. Yağış, sulu qar yağanda oyun və əyləncə evdə, üstüörtülü sahədə, eyvanda, külək tutmayan açıq yerdə təşkil olunmalıdır. Beləliklə, uşaqların fiziki inkişafı hər zaman mühüm məsələ kimi valideynlərin diqqət mərkəzində olmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Uşaqlarda sosial-emosional problemlərin yaranma səbəblərini izah edin.
2. Əlavə mənbələrdən istifadə etməklə qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup – “Sosial-emosional problemlərin yaranmasına təbii amillərin təsiri”;
   - 2-ci qrup – “Sosial-emosional problemlərin yaranmasına sosial amillərin təsiri”.
3. Uşaqların sosial-emosional bacarıqlarının inkişafında valideynlərin rolunu araşdırın.
4. Əlavə mənbələrdən topladığınız məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda olan fəaliyyət növlərinə dair təqdimat hazırlayın:
   - 1-ci qrup – “Ünsiyyət”;
   - 2-ci qrup – “Oyun”;
   - 3-cü qrup – “Söhbət”;
   - 4-cü qrup – “Dinləmə”;
   - 5-ci qrup – “Nağıl terapiyası”.
5. “Uşağın fiziki inkişafına kompleks sağlamlaşdırıcı tədbirlərin təsiri” mövzusunda panel təqdimatı hazırlayın.
6. Əlavə mənbələrdən topladığınız məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup – “Gün rejimi”;
   - 2-ci qrup – “Düzgün qidalanma”;
   - 3-cü qrup – “Gəzinti və əmək fəaliyyəti”;

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşağın sosial-emosional inkişafı, fiziki durumu və problemləri barədə valideyn və onu əvəz edənləri müvafiq qaydalara uyğun məlumatlandırır”.**

1. Sosial-emosional problemlərin yaranma səbəbləri hansılardır? Niyə?
2. Sosial-emosional bacarıqların inkişafında qarşıya çıxan çətinlikləri sadalayın.
3. Ailədə hansı davranış tərzi uşaqların sosial-emosional inkişafının təməlini təşkil edir?
4. Sosial-emosional bacarıqlarını inkişaf etdirən zəruri fəaliyyət növləri hansılardır?
5. Uşaqların fiziki inkişafını təmin edən mühüm amillər hansılardır? Niyə?
6. “Uşaqlarda sosial-emosional problemlərin yaranmasına təsir edən amillər” mövzusunda referat yazın.

## 1.4. Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını təsvir edir

### 1.4.1. Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin həlli

Hazırda bəşəriyyət qarşısında qoyulan mühüm tələblərdən biri azad, sosial, rəqabətədavamlı şəxsiyyət-vətəndaş yetişdirməkdən ibarətdir. Məhz bu cür şəxsiyyətlər vasitəsilə qlobal dünyada yeni-yeni nailiyyətlər əldə etmək mümkündür. Bunu üçün valideynlər, ilk növbədə, uşağın sosial-emosional və fiziki inkişafında qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına nail olmalıdırlar.

Uşağın sosial-emosional və fiziki inkişafında qarşıya çıxan çətinliklərin aradan qaldırılma vasitəsi özünü tam dolğun realizə etməkdir. Öz fiziki, sosial-emosional və intellektual potensialını realizə edə bilməyən, öz istedad və bacarığını ifadə edə bilməyən uşaq, bir qayda olaraq, onu əhatə edən insanlardan özünütəcrid vəziyyətinə düşür. Uşaq öz arzu və ideallarını həyata keçirmək üçün daim fəaliyyət göstərməlidir. Çünki uşaq fəaliyyətdə olarkən müəyyən uğurlar əldə edir. Bu uğurlar uşağın özünə inam hissini artırır, onun sosial-emosional bacarıqlarının inkişafı üçün ən qüdrətli qüvvəyə çevrilir.

### 1.4.2. Uşağın inkişafında qarşıya çıxan çətinliklərin aradan qaldırılması yolları

Ailədə müsbət emosional iqlimin (sevinc, məhəbbət, incəlik, diqqət, səmimilik) olması uşağın psixi sağlamlığı üçün əsas şərtlərdəndir. Valideynlərin ətrafda baş verən hadisələrə olan reaksiyası uşağın emosiyalarının formalaşması üçün böyük əhəmiyyət kəsb edir. Uşaqlar valideynlərinin bütün emosional reaksiyalarını dəqiqliklə qəbul edir və mənimsəyir. Buna görə də uşağın emosional inkişafında xoşagəlməz nə baş verirsə, bunun günahkarı valideynlərdir. Çünki uşaq valideynin güzgüdəki əksidir. Ailədəki xeyirxahlıq, valideynlərin uşağa, bir-birinə diqqəti, səmimi münasibəti və eyni zamanda əks cəhətlər də uşaq tərəfindən olduğu kimi qəbul olunur. Qarşılıqlı hörmət, qayğıkeş münasibət olmayan ailələrdə uşağın nəvazişə, məhəbbətə, qayğıya olan daxili tələbatı ödənilmir. Bu da uşağın sosial-emosional durumunda ciddi zədələr əmələ gətirir ki, bunun nəticəsində də uşağın ətrafdakılarla münasibətində problem yaranır.

Müxtəlif həyati situasiyalara valideynlərin düzgün reaksiyasının böyük əhəmiyyəti var. Məsələn, uşaq nəyisə sındırıb. Buna görə uşağa qışqırmaq, onun əməl etdiyi hər hansı bir nöqsanı xatırlamaq, danlamaq, ailədə ağır atmosfer yaratmaq lazım deyil. Yaxşı olar ki, uşağa baş verən hərəkətin səbəbini (tələskənliyi, diqqətsizliyi, təsadüfi və s.) izah etmək, sınan əşyaya təəssüflənmək və bununla da söhbətə nöqtə qoymaq lazımdır.

Valideynlər hər hansı pis əhvalının uşağa mənfi təsirini nəzərə alaraq, öz davranışlarına diqqət yetirməli, ailədə sakit, normal mühit yaratmalıdırlar. Valideynlər öz pis əhvalına uşaqları qarışdırmamalıdırlar. Əlbəttə, valideynlərin həyəcana, narazılığa ciddi əsası ola bilər. Bu o demək deyil ki, valideynlər öz problemlərini uşaqların çiyninə yükləsin, evdə gərgin atmosfer yaratsın. Bu və ya digər xüsusiyyətlərə malik olmaq hər bir valideynin münasibət stilini müəyyən edir və beləcə də sizin öz uşağınızda görmək istədiyiniz xeyirxahlıq, optimiz - başqasının dərdinə şərik olmaq, onu başa düşmək kimi müsbət insani

keyfiyyətləri inkişaf edəcək.

Uşaqların sosial-emosional inkişafı ümumi bioloji və əqli inkişafla sıx bağlıdır. Elmi ədəbiyyatlarda ailədə valideynlərlə uşaqlar arasındakı qarşılıqlı münasibətin 3 əsas növünü qeyd edirlər:

- Səhlənkarlıq;
- Avtoritarlıq;
- Demokratiklik.

Birinci münasibət tərzinə üstünlük verən valideynlərin davranışı uşağa qarşı münasibətdə laqeydlik kimi xarakterizə edilir.

İkinci münasibət tərzinə üstünlük verən valideynlərin davranışı uşağa qarşı münasibətdə avtoritarlıq, qətilik və diktatlıq (hökm) kimi xarakterizə olunur.

Üçüncü münasibət tərzinə üstünlük verən valideynlərin davranış tərzi isə valideynlərin qarşılıqlı anlaşılması hər iki tərəfin hüquqlarının, tələblərinin və maraqlarının nəzərə alınması kimi xarakterizə olunur.

Sosial-emosional bacarıqların inkişafı uşaqlara duyğularını tanımaq və idarə etməyi öyrənmək deməkdir. Bu, onların məsuliyyətlə davranmaq, müsbət və sağlam sosial münasibətlər qurmaq, özünə və ətraf mühitə zərər verən davranışlardan qaçmaq üçün bir prosesdir.

Uşaqların sosial-emosional bacarıqlarının inkişafında valideynlərin rolu danılmazdır. Valideynlər bu prosesdə ən çox diqqəti çəkən prosesə birbaşa təsir göstərən qüvvədir. Valideynin ailədə müsbət, dəstəkləyici və anlayışlı bir mühit yaratması uşaqların sosial-emosional bacarıqlardan səmərəli istifadəsi üçün çox vacibdir.

Uşaqların sosial-emosional bacarıqlarını inkişaf etdirmək üçün valideynlər aşağıdakı bəzi məqamlara xüsusi fikir verməlidirlər:

- Uşaqlar üçün nümunə olmaq lazımdır. Əldə etmək istədiyiniz sosial-emosional bacarıqlardan özünüzün istifadə etməyiniz vacibdir;
- Uşaqlarla birgə müzakirələr təşkil olunmalıdır. Gündəlik həyatda baş verən hadisələrlə əlaqədar uşaqlarla müzakirələr aparmaq problemlərin həlli istiqamətində onların dünyagörüşünü inkişaf etdirmək baxımından zəruridir;
- Tətbiq edilən üsulların təsirli olacağına inanmaq lazımdır. Çünki valideynin inamı uşaqlar tərəfindən hiss edilir. Valideynlərin sahib olması vacib olan əsas bacarıqlardan hesab edilən səbr və inam uşaqlarda sosial-emosional bacarıqların formalaşdırılması və inkişafında mühüm əhəmiyyətə malikdir.

Ailədə uşaqların sosial-emosional bacarıqlarının inkişafı və dəstəklənməsi üçün artıq “sərt baxışlı, yanına yaxınlaşmaq mümkün olmayan” valideyn imicindən “uşağı dinləyən, problemi həll etməkdə yardımçı olan, empatiya quran” valideyn imicinə sahib olmaq mühüm şərtdir. Bu davranış tərzi həm valideynlər, həm də uşaqların motivasiyasını yüksəltməklə yanaşı ümumilikdə ailə üzvlərinin davranışında sosial-emosional bacarıqların yer alması baxımından da çox önəmlidir. Çünki ailənin mühiti və uşaqların sahib olduqları emosional durum onların həyat fəaliyyətinə müsbət təsir edir.

Uşaqların sosial-emosional inkişafı onların akademik bacarıqlarına (motivasiya və çalışma istəyi), davranışlarına (davamiyyət, tapşırıqları yerinə yetirmə vərdişləri və əməkdaşlıq şəraitində öyrənmə) və təlim keyfiyyətinə (qiymətlər, test nəticələri və mövzuya hakimlik) çox ciddi təsir edir. "Özü dərsdədir, amma fikri başqa yerdə..." və "Əslində, çox ağıllı bir uşaqdır, amma dərsə diqqət ayıra bilmir..." fikirləri əksər valideynlərə çox yaxşı tanışdır. Təhsil sahəsində hamının tez-tez qarşılaşdığı, bəzən uşaqlarda diqqət, hərəkətlilik və motivasiya əksikliyi problemi əslində sosial-emosional inkişafla əlaqəlidir. Nə qədər ağıllı olur olsun, sosial həyatında rastlaşdığı problemləri uyğun şəkildə ifadə edə bilməyən, paylaşmayan və beynində böyüdən bir uşaq istər-istəməz hansısa işə diqqətini toplamaqda çətinlik çəkir.

Hərəkətlərinin fərqində olmayan və onları necə idarə edəcəyini bilməyən uşaq dərsdə danışır, ani hərəkətlər edir, yoldaşları ilə anlaşa bilmir və bu hadisələrin nəticəsində yaranan mənfi emosiyalar şagirdin təhsil həyatına təsir edir. Həll edilməli problemlər ancaq riyaziyyat dərsində olmur, məktəb və gündəlik həyatda rast gəldiyi problemləri necə həll edəcəyini bilməyən uşaq səbəb-nəticə əlaqəsi qurmaq və "soyuq başla" düşünə bilməkdə çətinlik çəkir.

Uşaqların sosial-emosional bacarıqlarının inkişafını dəstəkləmək üçün ailədə aşağıda qeyd olunan xüsusi məqamlara ciddi əməl olunmalıdır (Sxem 1.10):




**Sxem 1.10. Ailədə uşaqların sosial-emosional inkişafını dəstəkləmək üçün zəruri tədbirlər**

**Mühit.** Mühit uşaqların sosial-emosional bacarıqlarının inkişafında ən önəmli amillərindən hesab edilir. Uşağın akademik nailiyyəti onun yaşadığı mikro-mühit ilə birbaşa əlaqəlidir. Çünki uşağı akademik nailiyyətə sövq edən ən birinci amil mühitdir. Uşaqların bir-biri ilə şiddətdən uzaq, daha sağlam və açıq bir mühitdə fikir mübadiləsi aparması onların daha yaxşı təhsil nəticələri əldə etməsini təmin edir. Çünki uşaqlar öz nailiyyətlərini başqaları ilə qarşılaşdırmaqda olduqca həvəslidirlər. Bu tələblərə cavab verən mühiti yaratmaq uşaqların həm sosial-emosional bacarıqlarını inkişaf etdirmək, həm də öyrənmə bacarıqlarını dəstəkləmək üçün əhəmiyyətlidir. Öyrənmənin reallaşdırılması üçün mühitin ünsiyyətə açıq yer olması lazımdır;

**Valideyn-uşaq əlaqəsi.** Uşaqların öz valideynlərini nə qədər səmimi, dəstəkləyici, hörmətli və sosial əlaqənin təşviqedicisi kimi qəbul etmələri onların akademik nailiyyətləri, motivasiyalarının və ailəyə bağlılıqlarının artmasına səbəb olur. Valideyn uşaqları ilə qarşılıqlı əlaqədə olmaq, ailə üzvləri arasında qarşılıqlı əlaqələri dəstəkləmək və buna sövq

etməklə ailədə hörmət və qarşılıqlı anlaşma mühiti yaradır. Hörmət və qarşılıqlı anlaşmanın mühüm aspekti valideynlərin uşaqla necə ünsiyyət qurması və onunla necə rəftar etməsi ilə əlaqəlidir. Qarşılıqlı hörmət əsasında qurulmuş ünsiyyət ailədəki sosial-emosional mühitə müsbət təsir göstərir. Hörmətin mövcud olduğu mühitdə uşaq özünü dəyərli, təhlükəsiz və rahat hiss edir;

**Uşaqların sahib olduqları bacarıqların dəstəklənməsi.** İcraedici bacarıqlara, hərəkətə nəzarət, diqqəti bir nöqtədən digərinə yönləndirə bilmək, planlaşdırma, işə başlama və aktiv yaddaşdan istifadə etmək kimi bacarıqlar aiddir. Davranışların nəticələrini ehtimal etmək, hərəkətlərə nəzarət etmək, ruhdan düşməmək, məqsədəyönəlik davranış seçmək və problemi həll etmək kimi bacarıqlara sahib olan uşaqlar tapşırıqları müstəqil yerinə yetirir, təlimatları təqib edir və monoton, rutin işlərdə diqqətini cəmləyə bilirlər.

## Tələbələr üçün fəaliyyətlər

1. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında "Uşaqların sosial-emosional bacarıqlarının inkişafında valideynlərin rolu" mövzusunda geniş təqdimat hazırlayın.

2. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup – "Sosial-emosional bacarıqlarının akademik bacarıqlarına təsiri";
   - 2-ci qrup - "Sosial-emosional bacarıqlarının davranışlara təsiri";
   - 3-cü qrup - "Sosial-emosional bacarıqlarının təlim keyfiyyətinə təsiri".

3. Sosial-emosional inkişafda olan qüsurların uşağın davranışına təsirini araşdırın və təqdimat edin.

4. Ailə mühitinin uşaqların sosial-emosional bacarıqlarının inkişafına təsirini şərh edin.

5. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup – "Sosial-emosional bacarıqların inkişafına mühitin təsiri";
   - 2-ci qrup - "Sosial-emosional bacarıqları inkişafına valideyn-uşaq əlaqələrinin təsiri";
   - 3-cü qrup - "Uşağın sahib olduğu bacarıqlarının dəstəklənməsinin onun sosial-emosional bacarıqlarının inkişafına təsiri".

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşağın inkişaf prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılması yollarını təsvir edir”.**

1. Sosial-emosional bacarıqların inkişafı dedikdə nə nəzərdə tutulur?
2. Uşaqların sosial-emosional bacarıqlarını inkişaf etdirmək üçün valideyn hansı məqamlara xüsusi diqqət yetirməlidir?
3. Sosial-emosional inkişafın akademik nailiyyətə təsirini izah edin.
4. Ailədə uşaqların sosial-emosional bacarıqlarını hansı yollarla inkişaf etdirmək mümkündür?
5. “Uşaqların sosial-emosional inkişafına ailə mühitinin təsiri” mövzusunda referat yazın.

# TƏLİM NƏTİCƏSİ 2

## UŞAĞIN TƏLİMİ İLƏ BAĞLI VALİDEYN VƏ YA ONU ƏVƏZ EDƏNLƏRLƏ VAHİD TƏLƏBKARLIĞA DAİR ƏMƏKDAŞLIQ ETMƏK

## 2.1. Məktəbin qaydalarını valideyn və ya onu əvəz edənlərə ətraflı şəkildə izah edir

### 2.1.1. Məktəb qaydaları

Məktəbin daxili nizam-intizam qaydaları məktəbdə sağlam mühitin yaradılması, tədris prosesinin idarə edilməsinin təkmilləşdirilməsi, məktəbin ictimai nüfuzunun yüksəldilməsi, şagirdlərdə, pedaqoji kollektivdə və texniki heyətdə məsuliyyət hissini inkişaf etdirmək üçün vacib amil hesab edilir.

Məktəbin daxili nizam-intizam qaydaları şagirdlərin, rəhbər, pedaqoji və texniki işçilərin davranışlarını istiqamətləndirmək üçün lazım olan akademik qaydalar və prosedurların siyahısını özündə əks etdirir. Müəllim məktəbin daxili nizam-intizam qaydaları barədə övladları məktəbdə təhsil alan valideynləri mütəmadi olaraq məlumatlandırmalıdır.

### 2.1.2. Məktəbin daxili nizam-intizam qaydaları

Bütün ictimai yerlərdə və dövlət qrumlarında nizam-intizamın təmin olunması üçün müəyyən qanunların, davranış normalarının mövcudluğuna ehtiyac var. Çünki insanlar arasındakı münasibətləri tənzimləyən qaydalar olmasa özbaşınalıq yaranar. Məktəbin vahid tələbkarlıq qaydaları olmasa, məktəb idarəolunmaz vəziyyətdə olar. Ona görə də hər bir məktəbin daxili nizam-intizamını təmin edən davranış qaydalarının olması çox vacibdir. Məktəbin qarşısında duran mühüm vəzifələrdən biri də şagirdləri yaşadıqları cəmiyyətə uyğunlaşdırmaq üçün onlarda müəyyən bacarıqlar formalaşdırmaqdır. Uşağın yaşadığı cəmiyyətə uyğunlaşması və inteqrasiyası davranış qaydalarına yiyələnməsi nəticəsində mümkündür. Məktəb rəhbərliyi tərəfindən müyyənləşdirilmiş nizam-intizam qaydaları məktəbdə və sinifdə baş verəcək arzuolunmaz davranışların qarşısını almağa, onları korrektə etməyə, bütün məktəb kollektivinin vahid davranış tərzinə sahib olmasına xidmət edir. Sosiallaşan hər bir fərd yaşadığı cəmiyyətin qaydalarına və gözləntilərinə uyğun davranır. Məktəb kollektivi tərəfindən yerinə yetirilən işin keyfiyyəti ümumi qaydalara əməl etməkdən asılıdır. Məktəb şagirdlərin azadlığına hörmət etməklə onların sosial həyata inteqrasiya etmələrinə xidmət edir.

Özünə və övladına təlimdə bərabər imkanlar yaradıldığını müşahidə edən valideyn məktəblə münasibətlərini müsbət müstəvidə qurmağa çalışır. Tədbirlərdə böyük həvəs və maraqla iştirak edir, məktəbin sosial fəaliyyətlərində müttəfiqlik nümayiş etdirir.

Məktəbdə nizam-intizamı təmin edən qaydaların olması şagirdlərin ümummədəni davranış qaydalarına hörmət edən şəxsiyyət kimi yetişmələri üçün vacib şərtdir. Bütün şagirdlərin və valideynlərin məktəbin nizam-intizam qaydalarını qəbul etməsi, bu qaydaların tətbiqinə dəstək verməsi tədris prosesinin keyfiyyətinin yüksəlməsini təmin edir. Şagirdlər və onların valideynləri məktəbdə nəyi necə icra edəcəyi barədə əvvəlcədən məlumatlı olur. Qaydalar şagirdlərin məktəbdə nəyi necə etməli olduğunu dəqiqləşdirir və şagird onu vərdiş səviyyəsində yerinə yetirməlidir.

Məktəbdə qaydalara hamı tərəfindən (məktəb rəhbərliyi, müəllimlər, şagirdlər, valideynlər və s.) riayət olunmalıdır. Nəzərə alınmalıdır ki, daxili nizam-intizam qaydaları

müəyyən vaxt ərzində şagirdlərin və onların valideynlərinin hərəkətlərini nizamlamağa xidmət edir. Ona görə də tədris ilinin ilk iki həftəsində məktəb rəhbərliyi və müəllimlər daxili nizam-intizam qaydalarının icrasını nəzarətdə saxlamalıdır. Əks halda qaydaların icrasında boşluqlar yaranır. Nəticədə eyni bir təşkilati məsələyə görə şagirdə hər dəfə eyni göstərişləri vermək lazım olur. Bu isə böyük vaxt tələb edir və problemlər yaradır.

Məktəb təcrübəsinə görə şagirdin davranışında və ya təlim nəticəsindəki hər hansı bir problemlə bağlı valideynlərlə əlaqə saxladıqda, bəzi valideynlər müəllimi anlayışlı qəbul etmir. Valideyn çox təkidlə övladının mövqeyini müdafiə edir və övladının pis davranışının səbəbini müəllimin davranışında axtarır. Ona görə də valideynlərin "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda şagirdlərə, valideynlərə verilmiş hüquq və vəzifələr ilə tanış edilməsi vacib məsələdir. Şagirdlər və valideynlər hüquq və vəzifələri barədə məlumatlı olduqdan sonra onlar məktəbdən daha artığını gözləməyəcək, gərəksiz iddialarla tədris prosesinin gedişinə mane olmayacaqlar. Ona görə də məktəbin nizam-intizam qaydalarının hazırlanmasında şagirdlərin, valideynlərin hüquq və vəzifələrinin nəzərə alınması, onların iştirakının təmin edilməsi zəruridir. Qaydalar hazırlanarkən aşağıdakı məqamların nəzərə alınması çox vacibdir:

- Arzu olunan qaydaların sayı 10-15 bənddən çox olmamalıdır;
- Qaydalar pozitiv formada yazılmalıdır;
- Qaydalarda ”yox”, ”etmə”, “olmaz”, ”qadağandır” kimi sözlərdən istifadə edilməməlidir;
- Qaydalar aydın və konkret olmalıdır və interpretasiya imkan verməməlidir;
- Şagirdlərin başa düşməsi üçün qaydaların izahı olmalıdır;
- Şagirdlər bu qaydaları əhəmiyyətli hesab etməlidir ki, tədris məqsədlərinə nail ola bilsinlər;
- Qaydalar hamının görə biləcəyi yerdən asılmalıdır.

Məktəbin daxili nizam-intizam qaydalarında aşağıda qeyd edilən zəruri məsələlərin əks olunması vacibdir:

1. Şagirdlər (növbətçilər istisna olmaqla) məkətəbə dərs başlamamışdan 30 dəqiqə tez gəlməlidir.
2. Dərs vaxtı sakitçiliyə riayət olunmalıdır;
3. Dərs bitəndən sonra şagirdlər müəllimin icazəsi ilə sinfi tərk etməlidir. Tənəffüsdə başqalarına mane olmamaq üçün pilləkənlərdə sağ tərəflə hərəkət olunmalıdır;
4. Məktəb, ətraf mühit və sanitar qovşaqlar təmiz saxlanmalıdır;
5. Şagirdlər dırnaqları hər həftə tutmalı, dişləri müntəzəm olaraq təmizləməli, paltarların təmizliyinə və səliqəsinə diqqət yetirməlidirlər. Qızıl və bəzək əşyalarından istifadə etməməlidirlər;
6. Ümumi geyim qaydalarına əməl edilməli, şagirdlər məktəbli forması geyinməli, saç düzümünə diqqət etməlidirlər. Saçlar hər zaman təmiz, daranmış, səliqəli, boyasız və jelesiz olmalıdır;

7. Şagirdlər bir-birinə və müəllimlərə qarşı səmimi davranmalıdır. Müraciətlər zamanı "Buyurun!", "Xahiş edirəm!", "Təşəkkür edirəm!", "Bağışlayın!", "Üzr istəyirəm!" ifadələrindən tez-tez istifadə olunmalıdır. Müsahibə "Siz" deyə müraciət olunmalıdır;
8. Kitabxana, idman və akt zalında xüsusi qaydalara riayət olunmalıdır;
9. Məktəb kitabxanasında səssizliyə riayət olunmalıdır. Məktəb kitabxanasından alınan kitablar vaxtında təhvil verilməli, üstü yazılmamalı, cırılmamalı, səliqəli istifadə ediləmlidir;
10. Şagirdlər yığıncaq və ya tədbirlərə vaxtında gəlməli, onlara ayrılmış yeri tutmalı, səs salmamalı, digərlərinin diqqətini yayındıracaq hərəkətlərə yol verməməli, oranı vaxtından əvvəl tərk etməməlidirlər;
11. Şagirdlər məktəbin avadanlıqlarını qorumalı, onlara zərər yetirməməli, məktəbin divarlarını, partaların üstünü cızmamalı və yazmamalıdırlar. Şagird tərəfindən məktəbin əmlakına vurulan hər hansı zərər onun valideyni hesabına ödənilməlidir;
12. Şagirdlər məktəbə yalnız gündəlik dərsdə istifadə olunan ləvazimatlar gətirməlidirlər. Təlim-tərbiyə ilə əlaqədar olmayan heç bir əşyanı məktəbə gətirməməlidirlər;
13. Bufetdə, yeməkxanada növbəyə durmalı, xidmət edənlərlə mülayim rəftar etməli, mədəni davranmalı, alış-verişi dərsin başlanmasını bildirən zəng çalınanadək etməlidirlər;
14. Sinifdə, dəhlizdə və məktəbdə saqqız çeynəməməli və tum çırtlamamalıdırlar;
15. Şagird səhhətində problem yarandıqda valideynlə əlaqə saxlamaq üçün sinif rəhbərinə, məktəbin tərbiyə işləri üzrə direktor müavininə və ya tibb işçilərinə məlumat verilməlidir. Səhhətlə bağlı olmayan icazə lazım olduqda mütləq valideyn ərizə yazılmalıdır.

Məktəbin nizam-intizam qaydaları hər tədris ili məktəb pedaqoji şurasında müzakirə olunur və pedaqoji şuranın sədri tərəfindən təsdiq olunur və bir il qüvvədə olur. Hər bir şagird bu qaydalarla tanış olur. Qaydalardan istifadənin əhəmiyyəti şagirdlərə sinif rəhbəri (ibtidai siniflərdə sinif müəllimi) tərəfindən izah olunur. Bu qaydalar məktəbin girişində və bütün mərtəbələrinin dəhlizlərində şagirdlərin, onların valideynlərinin istifadəsinə yararlı yerdən asılmalıdır.

Hər tədris ilinin əvvəlində məktəbin nizam-intizam qaydaları ilə bağlı şagirdləri və onların valideynlərini məlumatlandırmaq üçün görüşlər təşkil olunmalıdır. Görüşlərdə şagirdlər və onların valideynləri məktəb qaydaları ilə tanış olur, tədris ili ərzində planlaşdırılan bütün əhəmiyyətli məlumatlar məktəb rəhbərliyi və müəllimlər tərəfindən onlara çatdırılır. Məktəbin fəaliyyəti, orada həyata keçirilən işlər barədə valideynlərin daim məlumatlandırılması onları məktəbin, müəllimin müttəfiqinə çevirmək üçün çox əhəmiyyətlidir.

Valideynləri övladlarının məktəbdə necə davranması və hansı qiymətlər alması hər

zaman maraqlandırır. Valideynlərin necə məlumatlandırılması məktəbdə əvvəlcədən planlaşdırılmalıdır. Bəzi müəllimlər həftənin axırında valideynlərə onların övladlarının qiymətləndirilməsi və həftə ərzində məktəbdəki davranışı haqqında bildiriş yollayır. Valideynlə bu ünsiyyət forması çox effektlidir, çünki valideynin öz övladı haqqında yalnız vəziyyətin kəskin olduğu vaxtda məlumat alması məqsədəuyğun deyil. Ona görə də şagirdin məktəbdəki davranış və təlim nəticəsinin çatışan və çatışmayan məqamları barədə valideynlərin mütəmadi məlumatlandırılması öz müsbət nəticəsini verəcək. Bu cür yanaşma əlavə vaxt və enerji tələb edir. Amma valideynlərlə effektli əməkdaşlıq, uşaqların ciddi davranış problemlərindən uzaq olması üçün mühüm bir vasitədir.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbin daxili nizam-intizam qaydaları hazırlanarkən nəzərə alınması zəruri olan məqamları izah edin.
2. Məktəbin daxili nizam-intizam qaydalarının tədrisin keyfiyyətinə təsirini araşdırın və təqdimat hazırlayın.
3. Məktəb qaydalarının şagirdlərə öyrədilmə yollarını izah edin.
4. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - "Dərsdə və kitabxanada davranış qaydaları";
   - 2-ci qrup - "Bufetdə və ya yeməkxanada davranış qaydaları";
   - 3-cü qrup - "Yığıncaq və ya tədbirlərdə davranış qaydaları".
5. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - "Məktəbin nizam-intizam qaydalarından istifadənin əhəmiyyəti";
   - 2-ci qrup - "Məktəbin nizam-intizam qaydalarının hazırlanmasında şagirdlərin, valideynlərin iştirakının zəruriliyi".



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Məktəbin qaydalarını valideyn və ya onu əvəz edənlərə ətraflı şəkildə izah edir”.**

1. Məktəbin nizam-intizam qaydaları hazırlanarkən hansı zəruri məqamlar nəzərə alınmalıdır?
2. Məktəbin nizam-intizam qaydaları harada müzakirə olunur və kim tərəfindən təsdiq edilir?
3. Məktəbin nizam-intizam qaydalarının hazırlanmasında kimlərin iştirakı vacibdir? Nə üçün?
4. Məktəbin nizam-intizam qaydalarının hazırlanmasında hansı hüquqi sənədlər nəzərə alınmalıdır? Niyə?
5. “Məktəbin nizam-intizam qaydalarının valideynlərə çatdırılma yolları” mövzusunda referat yazın.

## 2.2. Vahid tələbkarlıq qaydalarını izah edir

### 2.2.1. Vahid tələbkarlıq qaydaları

Vahid tələbkarlıq qaydaları məktəbin müdiriyyəti və həmkarlar ittifaqı komitəsi tərəfindən hər bir məktəbin iş şəraitinə uyğun hazırlanır və təsdiq edilir. Vahid tələbkarlıq qaydaları məktəb kollektivinin qarşılıqlı münasibətlərini tənzimləmək, nizam-intizamı təmin etmək məqsədi daşıyır. Vahid tələbkarlıq qaydaları pedaqoji və texniki işçiləri məktəbə vaxtında gəlməyə, müəyyən olunmuş qrafikə əməl etməyə, iş vaxtından səmərəli istifadə etməyə, kollektivlə nəzakətli olmağa, şagirdlərin həyat və sağlamlığının mühafizəsinə nail olmağa, onların ləyaqətinə, şərəfinə hörmət etməyə, dövlət standartlarının (kurikulumun) tələblərinə uyğun təhsil almaları üçün məktəbdaxili idarəetməni tənzimləməyə xidmət edir.

### 2.2.2. Məktəbin vahid tələbkarlıq qaydaları

Məktəbdə səmərəli təlim mühiti yaratmaq, qarşılıqlı hörməti təmin etmək və əlverişli məktəb-ailə əlaqələrini qurmaq üçün vahid tələbkarlıq qaydalarının olması vacibdir. Məktəb cəmiyyətin ən kiçik hissələrindən biridir və cəmiyyətdə davranış qaydalarının öyrənilməsində məktəbin üzərinə böyük öhdəliklər düşür. Çünki məktəb şagirdləri cəmiyyət üçün hazırlayır. Bu mənada məktəb vahid tələbkarlıq qaydalarının öyrənilməsi və həyata keçirilməsi baxımından çox vacib bir funksiyaya malikdir.

Bəs vahid tələbkarlıq qaydaları niyə vacibdir və onlar necə öyrədilir? Məktəb kiçik bir sosial vahiddir. Şagirdlər günlərinin müəyyən hissəsini orada keçirirlər. Vahid tələbkarlıq qaydaları sayəsində şagird ondan nə gözlənildiyini və hansı davranışlarının qəbul edilməyəcəyini bilir. Şagirdlər məktəb təcrübəsindən öyrəndiyi qaydaları gündəlik həyatda tətbiq edirlər. Bundan əlavə qaydalar qadağanedici bir funksiyaya deyil, müsbət davranış nümunələrini təşviqedici funksiyaya malik olmalıdır. Əks təqdirdə, şagirdlər həyat səviyyələrinə uyğun olmayan qaydalara sadiqlik hiss etməyəcəklər. Digər vacib məqam isə şagirdlərə qaydalara riayət etməyin zəruriliyini, mənəvi borc olduğunu izah etməkdir. Bu edilmədiyi təqdirdə, qaydalar səthi xarakter daşıyacaqdır.

Məktəbdə vahid tələbkarlıq qaydalarının şagirdlər arasında yayılmasında müəllimin şəxsiyyəti ən vacib amillərdir. Müəllim uşağın iç dünyasını bilməli və tanımalıdır. Müəllim şagirdin ailə vəziyyətini araşdırılmalı və evdə uşağın mənəvi inkişafını təmin etmək üçün mühitin olub-olmadığını bilməlidir.

Şagirdlərin məktəb qaydalarına tabe olmasının və ya pozmasının bir çox fərqli səbəbi var. Məktəb təcrübəsində yüksək akademik müvəffəqiyyəti olan şagirdlərin məktəb qaydalarına ciddi əməl etdiyi müşahidə olunur. Məktəbdə vahid tələbkarlıq qaydalarına əməl etməkdə çətinlik çəkən şagirdlər həm sosiallaşma, həm də akademik bacarıqları baxımından həmyaşıdlarından geri qalır. Sosiallaşma və akademik uğur qazanmaq üçün məktəb qaydalarına riayət etmək çox vacibdir. Unutmamalıyıq ki, şagirdlərin müsbət və ya mənfi davranışları ilə məşğul olmaq məktəb rəhbərlərinin və müəllimlərin əsas vəzifələrindən biridir. Şagirdlərin qaydalara əməl etməsi məqsədilə məktəbdə asudə

vaxtlarının səmərəli təşkili çox vacibdir. Bu məqsədlə müəllimin mütəmadi olaraq mədəni-kütləvi tədbirlər, viktorinalar, idman yarışları təşkil etməsi məqsədəuyğundur.

Valideynlərin məktəb qaydalarından xəbərdar olması, şagirdlərin nizam-intizama zidd davranışa yol verməsinin qarşısını alar. Bu baxımdan, valideynlərlə görüşlər zamanı şagirdin gələcəkdə cəmiyyətin fəal üzvü olması və qanunlara əməl etməsi üçün məktəb dövründə onlara qarşı tələbkar olmağın labüdlüyü, nizam-intizam qaydalarını bilmələrinin vacibliyi vurğulanmalıdır. Valideynlər bilməlidir ki, “Davranış qaydaları”nda şagirdlərin vəzifələri xatırladılır. Hər ailənin də özünəməxsus “Davranış qaydaları” var. Məktəbin də böyük bir ailə olduğunu nəzərə alsaq, şagirdlər ailədə olduğu kimi məktəbdə də qaydalara əməl etməlidirlər.

Müstəqil həyatda tələblər dəyişir. Uşaq olarkən heç bir məsuliyyət daşımayan şagird üçün vaxt keçdikcə məsuliyyət müəyyən edilir. Ona görə də məktəblilər qaydalara əməl etməklə və gələcəkdə qanunlara hörmət etmək, cəmiyyətdə özünü idarə etmək vərdişlərinə yiyələnmiş olurlar.

Məktəb qaydaları şagirdlərlə bərabər valideynlərə də tətbiq olunur. Valideynlər qaydalara o zaman həvəslə riayət edirlər ki, o qaydalar hamı üçün eyni olsun. Hansısa ayrıseçkilik olduqda valideynlər güzəştə getməyərək məktəb və onun rəhbərliyinə qarşı aqressiya nümayiş etdirir. Məktəb qaydaları (Sxem 2.1) aşağıdakı şəkildə hazırlanaraq şagirdlərin, valideynlərin istifadəsi üçün məktəbin saytında yerləşdirilə, mətbu orqanda dərc oluna və məktəbin girişində asıla bilər.




**Sxem 2.1. Məktəbdə davranış qaydaları**

**Davranış qaydaları**

1. Dərs zamanı şagird, dərs cədvəlinə uyğun olaraq müvafiq kabinetdə olmalıdır;
2. Dərs zamanı şagirdlərin diqqətini yayındırmaq, səs salmaq, kənar söhbətlər aparmaq, musiqiyə qulaq asmaq, dərsə aid olmayan işlərlə məşğul olmaq yolverilməzdir (Şəkil 2.1);
3. Dərs zamanı içməli su və dərmanlar istisna olmaqla yemək (o cümələdən saqqız və konfet) yeməyə icazə verilmir;
4. Dərs zamanı mobil telefonlardan istifadə etməyə icazə verilmir;
5. Tənəffüs zamanı şagirdlər məktəbdə təhlükəsizlik məqsədi ilə onlara qadağan edilmiş yerlərdən başqa (çardaq, zirzəmi, mətbəx, fizika və kimya laboratoriyası və s.) istənilən hissədə sərbəst gəzə bilərlər;
6. Tənəffüs zamanı bir-birlərini itələmək, dalaşmaq, digər uşağa və ya böyüyə xəsarət yetirə bilən əşyalar atmaq, kobud və ya həddindən artıq fiizki güc tətbiq etmək, sürahi üzərində sürüşmək yolverilməzdir (Şəkil 2.2);
7. Şagirdlərə pəncərə altı üzərində oturmağa icazə verilmir (Şəkil 2.3);
8. Şagirdlərə nəfəslikləri açmağa icazə verilmir;
9. Tənəffüs zamanı şagirdlərə məktəbin binasını tərk etməyə, o cümlədən artırmaya çıxmağa icazə verilmir.



**Şəkil 2.1. Dərsdə davranış qaydaları**



**Şəkil 2.2. Tənəffüsdə davranış qaydaları**



**Şəkil 2.3. Tənəffüsdə davranış qaydaları**

**Məktəbin iş rejimi:**

1. Şagirdlər üçün məktəbə və kabinetlərə giriş dərslərin başlanmasına 30 dəqiqə qalmış açılır;
2. Dərsdən sonra şagirdlərin məktəbdə əlavə dərslərdə, tədbirlərdə və dərnəklərdə iştirakı məktəb direktorunun təsdiq etdiyi cədvələ əsasən mümkündür;
3. Şagirdlərin məktəbdə olmaları saat 19:00 qədər yolveriləndir;
4. Məktəbdə saat 19:00-dan sonra şagirdlərin olmasına ancaq məktəb direktorunun icazəsi ilə yol verilir;
5. Tətil zamanı şagirdlər məktəbə, məktəb direktorunun təsdiq etdiyi tədbirlər planına uyğun buraxılır.

**Növbətçilik rejimi:**

1. Növbətçi sinif və növbətçi müəllim dərslərin başlanmasından 40 dəqiqə əvvəl məktəbə gəlir;
2. Növbətçi sinifin növbətçiliyi dərslərin başlamasından 30 dəqiqə əvvəl başlayır və növbətçi sinifin sonuncu dərsin qurtarmasından 15 dəqiqədən sonra bitir;
3. Növbətçi sinifin vəzifəsinə dərslərdən əvvəl və sonra, tənəffüs zamanı, həmçinin soyunma otağında və yeməkxanada şagirdlərin intizama riayət etmələri daxildir;
4. Şagirdlər növbətçi sinfin şagirdlərinin və növbətçi müəllimin tələblərinə tabe olmalıdırlar.

**Şagirdlərin evə yola salınma qaydaları:**

1. Sonuncu dərsi aparan ibtidai sinif müəllimi uşaqlara geyinməyə kömək edir və sinfin bütün şagirdləri evə gedənə qədər orada qalır;
2. Günü uzadılmış qruplara gedən uşaqların evə getmək qaydası və vaxtı, uşağı günü uzadılmış qrupa daxil edən vaxtı, valideynlərin (qanuni nümayəndələrinin, onları əvəz edən şəxslərin ) ərizəsi üzrə müəyyən edilir;
3. Şagirdlər məktəbi öz siniflərində dərslərin qurtarmasından 15 dəqiqədən gec olmayaraq tərk etməlidirlər;
4. Məktəbdən müəyyən edilmiş vaxtdan tez getməli olan şagird ancaq sinif rəhbərinin icazəsi ilə, valideynlərin (qanuni nümayəndələrin, onları əvəz edən şəxslərin) yazılı ərizəsi əsasında gedə bilər;
5. Dərslər qurtaran vaxtı öz uşaqlarını qarşılamağa gələn valideynlər onları həyətdə gözləyirlər;
6. Məktəbə bütün gələnlərin yazılı uçotu aparılır. Məktəbə gələnlərin adı, soyadı, atasının adı, gəlmə və getmə vaxtı qeyd edilir. Valideynlər mühafizəçiyə öz soyadlarını, adlarını, atalarının adını, övladının adını, oxuduğu sinfi və yanına getdikləri şəxsin adını bildirməlidirlər.

Cəza tədbiri intizam komissiyası tərəfindən təklif olunur və direktor tərəfindən həyata keçirilir. Qayda pozuntusuna görə aşağıdakı cəza tədbirləri tətbiq edilə bilər:

- Sifahi töhmət, nizam-intizama dəvət;
- Valideynlərə ünvanlanmış yazılı xəbərdarlıq, valideynlərlə görüş;
- Şagirdin məktəbdən uzaqlaşdırılması.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbin vahid tələbkarlıq qaydalarının şagirdlərə öyrədilməsinin vacibliyini izah edin.
2. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup – "Vahid tələbkarlıq qaydalarının şagirdlərə öyrədilməsində müəllimin rolu";
   - 2-ci qrup – "Vahid tələbkarlıq qaydalarının şagirdlərə öyrədilməsində valideynlərin rolu".
3. Şagirdin məktəb qaydalarına əməl etməsinin onun sosiallaşmasına və akademik uğurlarına təsirini araşdırın. Təqdimat hazırlayın.
4. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - "Məktəbin ümumi qaydaları";
   - 2-ci qrup - "Məktəbin davranış qaydaları";
   - 3-cü qrup - "Məktəbin iş rejimi";
   - 4-cü qrup - "Növbətçilik rejimi";
   - 5-ci qrup - "Şagirdlərin evə yola salınma qaydaları".
5. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında şagird məktəb qaydalarına əməl etmədikdə tətbiq olunan intizam tədbirlərinə dair təqdimat hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Vahid tələbkarlıq qaydalarını izah edir”.**

1. Məktəbin vahid tələbkarlıq qaydaları hansı funksiyalara malik olmalıdır? Niyə?
2. Məktəbin vahid tələbkarlıq qaydalarının təbliğində müəllimin rolu haqqında esse yazın.
3. Valideynlər məktəbin vahid tələbkarlıq qaydaları ilə hansı yollarla məlumatlandırılmalıdır?
4. Şagirdlərin məktəbin qaydalarına əməl etməsi üçün müəllim hansı zəruri tədbirlər görməlidir?
5. “Vahid tələbkarlıq qaydalarının təlimin keyfiyyətinə təsiri” mövzusunda referat yazın.

## 2.3. Valideyn və ya onu əvəz edənlərlə peşəkar ünsiyyət qurmaq bacarıqları nümayiş etdirir

### 2.3.1. Peşəkar ünsiyyət bacarıqları

Məktəb-ailə əlaqələrinin möhkəm təməllər üzərində qurulması müəllimlərdən böyük məsuliyyət tələb edir. Bunun üçün müəllim valideynlərlə mütəmadi əlaqə saxlamalı, onları məktəbə dəvət etməli, məktəbin və şagirdlərin uğurları barədə məlumatlandırmalıdır. Müəllim valideynlərin tədris prosesinə, məktəb tədbirlərinə cəlb edilməsində maraqlı olmalı, müxtəlif vasitələrlə fikirlərini ifadə etmələrini təmin etməlidir. Müəllim valideynlərlə daim ünsiyyətdə olmalı, onları tədris prosesinin fəal iştirakçısına çevirməlidir. Valideyn və müəllim uşağa eyni şəkildə təsir etməlidir ki, çaşqınlıq yaranmasın. Övladının təhsil prosesində iştirak edən valideyn öz uşağına, ona dərs deyən müəllimə qarşı daha anlayışlı olur, onların fikirlərinə hörmətlə yanaşır. Uşağının sosial-emosional, fiziki və intellektual inkişafına daha çox vaxt ayırır. Əlbəttə ki, bu münasibətin qurulması müəllimin müvafiq peşəkar ünsiyyət bacarıqlarına sahib olmasından asılıdır.

### 2.3.2. Müəllimin peşəkar ünsiyyət bacarıqları

İnformasiya və kommunikasiya texnologiyalarındakı sürətli dəyişiklik insanları informasiya cəmiyyətinin üzvü olmağa istiqamətləndirir. İqtisadiyyat, sosial və mədəni həyatı dəyişdirən informasiya cəmiyyətinə keçid prosesi şərh edən, yeni məlumat yaradan, sosial və texniki problemlər haqqında düşünən şəxslərə ehtiyac yaratmışdır. İnformasiya cəmiyyətini təşkil edəcək şəxslərin təlimi yalnız təhsil sisteminin vacib elementlərindən biri olan peşəkar müəllimlər tərəfindən təmin edilə bilər.

Bu bacarıqlar araşdırıldıqda peşəkar müəllimin əsas xüsusiyyətlərindən birinin təsirli ünsiyyət qurma qabiliyyəti olduğu görülür.

Peşəkar müəllimlərin əsas bacarıqlarından biri olan ünsiyyət bacarıqları insanların hislərini, fikirlərini, inanclarını və münasibətlərini ifadə etmə qabiliyyətidir. Aparılan araşdırmalar göstərir ki, şəxslərin ünsiyyət bacarıqları onların peşə sahəsində uğur qazanmasında vacib amildir.

Valideynlərlə səmərəli ünsiyyət qurmaq, sinif problemlərinin həllində valideynlərin iştirakını təmin etmək, münaqişələrin minimuma endirilməsi və tədrisin səmərəliliyinin artırılması müasir müəllimin əsas vəzifələrindəndir.

Müəllim peşəsi ilə ünsiyyət qabiliyyəti bir-birinə sıx bağlıdır. Peşəkar ünsiyyət olmadan aparıcı müəllim olmaq mümkün deyil. Şagirdlərin uğurlu təlim nəticəsi müəllim-valideyn əməkdaşlığından çox asılıdır. Çünki valideynlər uşağın şəxsiyyətinin inkişafına daha çox təsir edir. Bu səbəbdən valideynləri pedaqoji prosesin fəal iştirakçısına çevirmək üçün müəllim peşəkar ünsiyyət bacarıqlarına sahib olmalıdır.

Müəllimin valideynlərlə peşəkar ünsiyyəti təlim prosesinin keyfiyyətli təşkili baxımından son dərəcə vacibdir. Müəllim ünsiyyətinin səmərəli olması üşün aşağıda qeyd olunan bacarıqlara sahib olmalıdır (Sxem 2.2):




**Sxem 2.2. Ünsiyyət bacarıqları**

**Ünsiyyət zamanı göz təması qurmaq.** Müəllimin ünsiyyət zamanı valideynlərlə göz təması qurması çox vacibdir. Bu, müəllimin valideynlərə göstərdiyi hörmətin, onlarla ünsiyyətə göstərdiyi diqqətin göstəricisidir. Müəllimin ünsiyyət zamanı valideynlərlə göz təması qurması onların fikirlərinin vacib və çox dəyərli olduğuna bir işarədir;

**Ünsiyyət zamanı bədən dilindən istifadə etmək.** Bədən dili dedikdə jestlər və mimikalar, hətta ünsiyyət zamanı səs tonu nəzərdə tutulur. Çox vaxt müəllimlər söz vasitəsilə çatdırdıqları məlumatları gücləndirmək və ya daha səmərəli təsir göstərmək üçün nitqdən kənar vasitələrdən, bədən dilindən də istifadə edirlər. Araşdırmalara görə qarşı tərəfə məlumatların effektiv ötürülməsi baxımından jestlər və mimikalar 55-60 %, səs tonu 30-35 %, sözlər isə 8-10 % əhəmiyyət daşıyır;

**Ünsiyyət zamanı xoş ifadələrdən istifadə etmək.** Valideynlərlə ünsiyyət qurarkən müəllim tənqidi dildə deyil, konstruktiv dildən istifadə etməlidir. Müsbət cümlələrin valideynlərə daha təsirli olduğu və sağlam ünsiyyətin qorunması üçün zəruri olduğu məlumdur. Məsələn, müəllim şagirdin ev tapşırığını yoxlayır. Səhvləri qırmızı qələmlə qeyd edir. Valideynin diqqətinə şagirdin səhvlərini çatırmaq üçün müəllimin "Əlinin dəftərinin vərəqi zoğal sahəsinə döndü." demək əvəzinə, "Mən Əlinin düzgün yazdığı cümlələrin altından xətt çəkmişəm" deməsi daha məqsədəuyğundur.

Müəllim valideyn ilə ünsiyyət qurarkən, "amma" bağlayıcısının əvəzinə "və" bağlayıcısından istifadə etməli, hadisələri əlaqələndirərkən heç bir ön şərt yaratmamalıdır. Məsələn: "Sizin övladınız çox pis oxuyur", "Sizin övladınız heç oxumur" əvəzinə, "Sizin övladınız dərslərinə bir az çox vaxt ayırsa daha yaxşı olar". Müəllimlərin valideynlərlə ünsiyyət zamanı bu amillərə diqqət yetirməsi, məqsədlərinə daha tez çatmalarına səbəb olar;

**Ünsiyyət zamanı yaxşı bir natiq, yaxşı bir dinləyici olmaq.** Müəllim ünsiyyət qurarkən nitqinin sadə, səlis, rəvan olması, fikrini məntiqi ardıcıllıqla ifadə etməsi onun savad dərəcəsindən asılıdır. Müəllim valideynlərin fikirlərini şərh etmədən, sözünü kəsmədən, onu ittiham etmədən dinləməlidir. Sonra valideynə fikir və mülahizələrini çatdırmalı, lazımi istiqamət verməlidir.

Müəllim valideyn ilə "Mən" dilində ünsiyyət qurmalıdır. Çünki "Sən" dili valideyni ittiham etmək dilidir. Müəllimin "Mən" dilində ünsiyyəti valideynin övladının mənfi davranışından necə təsirləndiyini izah edir. "Sən" dili günahlandırır, "Mən" dili isə konstruktivdir.

Müəllim valideyndə özünə inamını inkişaf etdirmək üçün "Mən" dilindən istifadə etməsi çox vacibdir. Özünə hörməti artırmaq üçün valideynə müsbət izahlar vermək lazımdır. Məsələn: "Mən övladınızı motivasiya etməkdə sizə necə kömək edə bilərəm?";

**Ünsiyyət zamanı empatiya qurmaq.** Müəllimin valideyn ilə ünsiyyət qurarkən empatik dildən istifadə etməsi, valideyni və onun duyğularını anlaması çox vacibdir. Müəllim valideynlərlə ünsiyyət qurarkən, onları hər hansı səhv söylədiyi fikrə görə mühakimə etməməlidir.

Yuxarıda qeyd olunan ünsiyyət bacarıqlarına sahib müəllimlər valideynlərə daha asan təsir göstərir, onları təlim prosesinə çox rahat şəkildə səfərbər edir və intizam problemlərini daha tez həll edirlər. Beləliklə, müəllimlər və valideynlər arasında ünsiyyətin qarşılıqlı anlaşma şəraitində qurulması və inkişaf etdirilməsi təlim fəaliyyətinin daha mənalı, xoş və faydalı olmasını təmin edir.

Müəllimin qeyd olunan ünsiyyət bacarıqlarına sahib olması ona valideynlərlə səmimi münasibət qurmağa kömək edir. Çünki effektiv ünsiyyət bacarıqları yaxşı idarəçiliyin əsasını təşkil edir. Müəllimlərin hansı ünsiyyət bacarıqlarından istifadə etməsi, onların peşəkarlıq səviyyəsindən xəbər verir. Müəllimin empatiya, fəal dinləmə və bədən dilindən istifadə etməsi onun ünsiyyətinin keyfiyyətini göstərən vacib ünsürlərdir. Müxtəlif ünsiyyət bacarıqlarından istifadə edən müəllimlər sinifdəki problemləri valideynlərlə çox müvəffəqiyyətlə müzakirə edir və onların rəy və təkliflərini öyrənirlər.

### 2.3.3. Müəllimin valideynlərlə ünsiyyət vasitələri

Effektiv ünsiyyət üçün müəllim və valideynin bir-biri ilə məlumatları paylaşması vacibdir. Müəllim valideynlərlə ünsiyyət formasını müəyyənləşdirmək üçün tədris ilinin əvvəlində ailələrə sorğu göndərir. Sorğuda valideyn özü üçün əlverişli olan ünsiyyət vasitəsini (telefon zəngi, elektron poçt, məktub, sosial şəbəkələrdən istifadə və s.) qeyd edir. Çünki valideynlərin interneti yoxdursa, əgər onlar elektron poçtla göndərilən məktubları qəbul edə bilmirlərsə, bu zaman əlaqə qurula bilməyəcək. Ona görə də valideynlə ünsiyyət formasının müəyyənləşdirilməsinin sorğu əsasında həyata keçirilməsi məqsədə uyğundur. Burada müəllim valideynlə elə əlaqə vasitələrindən istifadə etməlidirlər ki, valideynlər üçün anlaşılan, əlçatan olsun.

Uşaqlar və ailə haqqında müvafiq məlumat əldə etmək üçün tədrisin başlanmasından iki və ya üç həftə sonra müəllim valideynlər üçün anketi evə göndərə bilər. Anket aşağıdakı suallardan ibarət ola bilər:

- Övladınız erkən yaşlarda necə idi?
- Övladınızın güclü və zəif tərəfi nədir?
- Övladınız boş vaxtlarında nə ilə məşğul olur?

Anket vasitəsi ilə valideyn öz ailə ənənələri və dəyərləri, həmçinin ailədə mövcud olan problemlər (xəstəlik, yaşlı valideynlər, maddi problemlər və s.) haqqında da məlumat verə bilər. Bu məlumat müəllimə hər bir şagirdi tanımaq imkanı verir. Valideynlərin övladlarına və onların tədris prosesinə necə nəzarət etmələrini bilmək müəllim üçün əhəmiyyətlidir.

Müəllim valideynlərlə ünsiyyət zamanı aşağıdakı vasitələrdən istifadə edə bilər (Sxem 2.3.):




**Sxem 2.3. Valideynlərlə ünsiyyət vasitələri**

**Məktub və ya E-mail (elektron məktub) vasitəsi ilə**

Elə valideynlər var ki, onlar tez-tez məktəbə gələ bilmirlər. Əgər valideyn məktəbə gələ bilmirsə, müəllim ona məlumat məktubu yazmalıdır. Məktubda fərdi olaraq həmin valideynin uşağı haqqında məlumat olmalıdır. Məsələn, məlumat uşağın fərdi inkişafı ilə bağlı ola bilər, uşaq nəyə nail oldu, nəyə nail ola bilmədi və səbəb nə idi. Uşağın güclənməsi üçün müəllimlər və valideynlər qarşılıqlı əməkdaşlıq əlaqəsi ilə nə edə bilərlər. Şagirdin bu və ya digər istedadının üzə çıxarılması üçün nə etmək lazım olduğu ilə əlaqədar valideyinə məktub şəklində tövsiyələr göndərilə bilər. Müəllimlər valideynə həvəsləndirici məktublar yollamağı vərdiş halına gətirməlidirlər. Akademik göstəriciləri az olan, pis hərəkətləri ilə seçilən, müəllimin göstərişlərinə əməl etməyən uşaqlara daha çox vaxt ayrılmalıdır. Yaxşı oxuyan və yaxşı hərəkət edən uşaqlar isə layiq olduqları tərifi də qəbul etmirlər. Məktub yazarkən şagirdin uğurunda valideynlərin rolunu vurğulayın, onlara təşəkkür edin, şagirdlərin təlim uğurlarında onların xidmətinə diqqət yönəldin. Müəllim valideynə övladının uğuru ilə bağlı məktub göndərən zaman valideyinin sevincinin sərhəddi olmur.

**Telefon vasitəsi ilə**

Əgər valideyn müəllimin yanına gələ bilmirsə, onunla telefon vasitəsilə əlaqə yaradılmalıdır. Valideynə uşağın sadəcə ehtiyacları və zəif tərəfləri haqqında deyil, həm də uğurları və üzə çıxan bacarıqları haqqında məlumat verilməlidir. Sistemli olaraq valideynlərə yaxşı xəbərlər verin. Müəllimlər valideynlərlə telefon əlaqəsi yaratmağı vərdiş halına gətirməlidirlər. Müəllimlər zəng edərək onların uşağını tərifləyən zaman "İmranın mənim sinfimdə oxumasına çox sevinirəm" dediyi zaman, valideynlər razı və əksər hallarda təəccüblü qalırlar.

Əksər ailələrdə ən az bir mobil telefon var və beləliklə, mobil telefon məlumatın yayılmasının ən səmərəli vasitələrindən biridir. Mobil telefon vasitəsi ilə məlumatın yayılması yeni və sərfəli üsuldur.

**Sosial şəbəkələr (facebook, whatsapp, instagram və s.) vasitəsi ilə**

Yaxşı olar ki, valideynlərlə görüş zamanı və ya sosial şəbəkədə müxtəlif qərarlar (qaydalar, qiymətləndirmə sistemləri, tapşırıq tipləri, çətinliyi və həcmi, tapşırığın yerinə yetirilməsi prosesində uşağa kömək etmək metodu) müzakirə edilsin. Həmçinin sosial şəbəkənin köməyi ilə valideyndən şagirdin ehtiyaclarını soruşmaq və müzakirə etmək olar.

Əgər internet səhifəni yaratmaq üçün məktəbin vəsaitləri yoxdursa, müəllim fərdi olaraq sosial şəbəkədə, məsələn, Facebook-da səhifə yarada bilər. Həmin veb-səhifədə materiallar yerləşdirə, valideynlərə məlumatlar göndərə bilər və müvafiq müzakirələr təşkil oluna bilər.

**Valideynlərlə görüş vasitəsi ilə**

Görüşlər müxtəlif mövzulara aid olmalı və dialoq formasında keçirilməlidir. Görüş konstruktiv olmalı, məlumatların, ideyaların qarşılıqlı paylaşılmasına əsaslanmalıdır. Görüş leksiya formatında olmamalıdır. Görüş yerləri və iştirakçıların rahat şəkildə yerləşdirilməsi nəzərə alınmalıdır. Yaxşı olar ki, görüşlər müxtəlif vaxtlarda keçirilsin ki, bütün valideynlərin iştirak etmək imkanı olsun. Müəllim mövcud və planlaşdırılan tədbirlər/layihələr haqqında məlumat vermək üçün valideynlərlə məktəb rəhbərliyinin (direktorun, direktor müavinlərinin) görüşünü təşkil etməlidir. Bu görüşlərdə əsas amil valideynlərin tədris prosesinə cəlb olunması olacaq.

## Tələbələr üçün fəaliyyətlər

1. Müəllimin peşəkar ünsiyyət bacarıqlarını izah edin.
2. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - "Ünsiyyət zamanı göz təması qurmaq";
   - 2-ci qrup - "Ünsiyyət zamanı bədən dilindən istifadə";
   - 3-cü qrup - "Ünsiyyət zamanı xoş ifadələrdən istifadə";
   - 4-cü qrup - "Ünsiyyət zamanı yaxşı natiq, dinləyici olmaq";
   - 5-ci qrup - "Ünsiyyət zamanı empatiya qurmaq".
3. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək "Valideynlərlə əlaqə vasitələrinə dair" aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - "Məktub və ya E-mail (elektron olaraq məktub) vasitəsi ilə";
   - 2-ci qrup - "Telefon vasitəsi ilə";
   - 3-cü qrup - "Sosial şəbəkə vasitəsi ilə";
   - 4-cü qrup - "Valideynlərlə görüş vasitəsi ilə".
4. "Akvarium" təlim üsulundan istifadə edərək aşağıdakı sualın müzakirəsini təşkil edin:
   - Valideynlərlə səmərəli ünsiyyət qurmaq üçün müəllim hansı peşə kompetensiyalarına malik olmalıdır?
5. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında "Müəllim peşəkar ünsiyyət bacarıqlarına əməl etmədikdə yaranan problemlər" mövzusunda təqdimat hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Valideyn və ya onu əvəz edənlərlə peşəkar ünsiyyət qurma bacarıqlarını nümayiş etdirir”.**

1. Müəllimin hansı peşəkar ünsiyyət bacarıqlarına sahib olması zəruridir? Niyə?
2. Müəllimin ünsiyyət bacarıqlarının təlimin keyfiyyətinə müsbət təsirlərini izah edin.
3. Peşəkar ünsiyyət zamanı müəllimin xüsusi diqqət yetirməli olduğu məqamlar hansılardır? Niyə?
4. Peşəkar ünsiyyət zamanı müəllim hansı əlaqə vasitələrindən istifadə edir?
5. “Uşaq və ailə haqqında məlumatın toplanması yolları” mövzusunda referat hazırlayın.

## 2.4. Valideyn və ya onu əvəz edənlərlə əməkdaşlıq zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması yollarını izah edir

### 2.4.1. Ziddiyyətlərin aradan qaldırılma yolları

Məktəblərdə təlimin keyfiyyətinin düzgün qurulması müəllim-valideyn əməkdaşlığından çox asılıdır. Müəllim təlimi uğurlu təşkil etmək üçün ilk növbədə valideynlərin rəyini öyrənməlidir. Müəllim şagirdləri tanımaq, onlar haqqında ətraflı məlumat əldə etmək üçün ailə ilə məktəb arasında vahid tərbiyəvi mühit yaratmağı bacarmalıdır. Bu yanaşma təlimin keyfiyyətinin yüksəlməsinə xidmət edər. Lakin bu heç də həmişə mümkün olmur. Bəzən obyektiv və subyektiv səbəblərdən müəllim-valideyn əməkdaşlığında bəzi ziddiyyətli məqamlar yaranır ki, bu da təlimin müasir tələblərə uyğun qurulmasına mane olur.

### 2.4.2. Valideyn-müəllim əməkdaşlığında yaranan ziddiyyətlər və onların həll yolları

Valideyn-müəllim əməkdaşlığında yaranan ziddiyyətlər, adətən, müəllimlə şagird arasında yaranmış konflikdən qaynaqlanır. Şagird hər zaman sakit, müəllim isə səbirli ola bilməz. Bu, insan amilidir və bundan qaçmaq olmaz. Valideyn-müəllim münasibətlərində yaranan ziddiyyətləri aşağıdakı kimi təsnif etmək olar:

**Valideynlərin nöqteyi-nəzərindən:**

- Müəllimin səriştəsizliyi: valideynlərlə düzgün ünsiyyət qura bilməməsi;
- Müəllimin uşağa düzgün yanaşa bilməməsi: “mənim övladım istedadlıdır, ancaq dərsdə fikirlərini ifadə edə bilmir, müəllimdən qorxur”;
- Müəllimin uşaqları iki qrupa bölməsi: "sevimlilər və digərləri";
- Müəllimin uşağın nailiyyətini düzgün qiymətləndirməməsi: qiyməti aşağı yazması, şagirdləri obyektiv qiymətləndirməməsi, şagird fəaliyyətinə həddən artıq yüksək tələblər qoyması;
- Müəllimin uşaqları təhqir etməsi;
- Müəllimin uşaqların yanında valideynlər haqqında pis sözlər danışması.

**Müəllimlərin nöqteyi-nəzərindən:**

- Uşaqların tərbiyəsində valideynlərin boşluqlar buraxması: uşağın sadə tələbləri yerinə yetirə bilməməsi, məsələn, uşağının məktəbli formasında məktəbə gəlməməsi, bədən tərbiyəsi dərsi üçün lazımi geyimin olmaması, uşağa lazımi diqqətin ayrılmaması;
- Valideynlərin müəllimə qarşı əsassız tələblər irəli sürməsi: niyə müəllim tənəffüslərdə uşaqların yanında olmur, uşağa tapşırıqların icrasında kömək etmir, uşaqlara daim yüksək qiymət yazmır;
- Valideynlərin uşağı haqqında həddindən artıq yüksək fikirdə olması;
- Valideynlərin təsadüfi müşahidələri əsasında məktəb haqqında mənfi fikir söyləməsi;

- Valideynlərin heç nəyin dərinliyinə getməməsi;
- Valideynlərin müəllimləri xarici görünüşünə uyğun mühakimə etməsi;
- Valideynlərin uşağı tamamilə nəzarətsiz qoyması;
- Müəllimləri onların övladlarını öyrətməyə, tərbiyə etməyə borclu hesab etməsi;
- Valideynlərin tez-tez təlim prosesinə müdaxilə etməsi;
- Valideynlərin seçilmiş müəllimi övladlarına uyğun hesab etməməsi;
- Valideynlərin müəllimləri müqayisə etməsi.

Göründüyü kimi məktəb və valideynlər arasında sağlam və etibarlı bir əlaqənin qurulmaması, həm valideynlərin məktəbə etibar etməməsi və kömək etməkdən imtina etməsi, həm də məktəb rəhbərləri və müəllimlərin şagirdlərin sosial-iqtisadi vəziyyətini bilməməsi bəzi ziddiyyətlərin yaranmasına səbəb olur.

Pedaqoji təcrübəyə və bəzi elmi tədqiqatlara əsasən aşağıda qeyd olunan bir sıra səbəblər valideyn-müəllim əlaqələrinin normal qurulmasına mane olur:

- Uşağın təlimdə nailiyyət əldə edə bilməməsi;
- Valideynlərin müəllimlərlə ünsiyyət qura bilməməsi;
- Müəllimlərin valideynlərə qarşı avtoritar münasibəti;
- Valideynlərin müəllimlərlə çətinliklə görüşməsi;
- Məktəbin fəaliyyəti ilə bağlı valideynlərin təklif və şikayətlərinin nəzərə alınmaması;
- Valideynlərin həddən artıq məşğul olması;
- Məktəblə ev arasında məsafənin uzaq olması;
- Müəllimlərin davamlı olaraq valideynlərə məsləhət verməsi;
- Ailələrin maddi yetərsizliyi;
- Valideyn-məktəb assosiasiyasının fəaliyyətinin yetərsiz olması;
- Valideyn iclaslarının səmərəsiz olması;
- Valideynlərdən pul tələb edilməsi;
- Uşaqların təlim nəticələrinin aşağı olması;
- Valideynlərin təhsil səviyyəsinin aşağı olması.

Göründüyü kimi, valideynlər tərəfindən məktəbə marağın olmamasının səbəbləri kimi müxtəlif amillər göstərilir. Bu səbəblər bəzi ailələrdə sosial-iqtisadi problemlərdən qaynaqlanır. Ailədə olan sosial-iqtisadi çatışmazlıqlar səbəbindən uşağa qayğı göstərilmirsə, bu uşağın fiziki və psixoloji inkişafına mənfi təsir göstərir. Buna görə şagirdin dərsə marağı azalır, məktəbə gəlmək istəmir. Ailənin sosial-iqtisadi durumu barədə müəllimin düzgün məlumatlandırılmaması müəllimin şagirdi yaxşı tanımasına mane olur. Müəllim-valideyn-şagird münasibətlərinin düzgün qurulmaması ilə nəticələnir. Çünki təhsil birbaşa və ya dolayı yolla bütün insanlara və ölkənin inkişafına təsir göstərdiyinə görə hər kəsin, xüsusən, məktəbin və müəllimlərin qarşısında müəyyən vəzifələr durur. Ona görə də məktəbdə keyfiyyətli təhsil mühiti yaratmaq və şagirdləri səriştəli şəkildə həyata hazırlamaq üçün

bütün maneələr aradan qaldırılmalıdır.

Valideynlər məktəbə lazımi qədər maraq göstərməməklərinin səbəbini işlərinin çox olması, məktəb rəhbərliyinin və müəllimlərin onlara lazımi qədər diqqət yetirməməsi ilə əlaqələndirirlər. Bir çox valideynlər məktəbə qarşı maraqlarının az olmasının əsasında məktəb rəhbərliyi və müəllimlərlə əlaqə qurmaq cəhdlərinin səmərəsiz olduğunu qeyd edirlər. Valideynlər tərəfindən məktəbin məqsədlərinin düzgün qavranılmaması onlarda məktəbə marağın olmamasına, nəticədə müəllim-valideyn əməkdaşlığında ziddiyyətlərin yaranmasına səbəb olur. Şagirdlərin təlim nəticələrindən asılı olmayaraq müəllimin əsas vəzifələrindən birinin şagirdlərin sosiallaşmasını təmin etmək və həyata hazırlamaq olduğu valideynlərə izah edilməsi çox vacibdir.

Məktəbdəki şagirdlərin sayından, valideynlərin təhsil səviyyəsindən və məktəbin şəhər mərkəzində və ya ucqar kənddə yerləşməsindən asılı olmayaraq qeyd olunan ziddiyyətlər ümumilikdə bütün müəllim-valideyn münasibətlərində yaşanır. Sosial həyatda bir çox problemlərə səbəb olan düzgün ünsiyyətin olmaması məsələsi valideyin-müəllim əməkdaşlığında da özünü göstərir. Müəllim-valideyin əməkdaşlığında ən çox rast gəlinən ziddiyyətlər valideyn-məktəb assosiasiyasının səmərəli fəaliyyət göstərməməsi, xüsusi hallar istisna olmaqla, məktəb rəhbərləri ilə valideynlərin bir araya gələ bilməməsi və valideyn iclaslarının səmərəli təşkil edilməməsidir. Müəllim-valideyn əlaqələrində yaranan ziddiyyətlərin aradan qaldırmadan səmərəli müəllim-valideyn əməkdaşlığını həyata keçirmək mümkün deyil. Müəllim-valideyn əməkdaşlığını inkişaf etdirmək və valideynlər tərəfindən qeyd edilən maneələri aradan qaldırmaq üçün məktəb rəhbərləri və müəllimlərin üzərinə düşən vəzifələri düzgün yerinə yetirməlidir.

Şagirdlərin təlim uğurlarını artırmaq və onları həyata daha yaxşı hazırlamaq üçün səmərəli müəllim-valideyn əməkdaşlığının zəruri olduğunu nəzərə alaraq, məktəb rəhbərləri və müəllimlər aşağıda qeyd olunan davranış tərzini üstün tutmalıdırlar:

1. Bütün şagirdlərə şəxsiyyət kimi yanaşılmalı, məktəbə verdiyi töhfədən, sosial-iqtisadi və təhsil səviyyəsindən asılı olmayaraq bütün valideynlərə eyni münasibət göstərilməlidir;
2. Məktəbin yalnız şagirdlər üçün deyil, həm də valideynlər və cəmiyyətin digər üzvləri üçün bir təhsil mərkəzi olduğu nəzərə alınmalıdır;
3. Müəllim-valideyn görüşləri və iclaslar məsləhət verilən bir mühitdə deyil, fikir və düşüncələrin bölüşüldüyü bir mühitdə keçirilməlidir. Şagirdlərə fərdi yanaşılmalı, valideynlərə avtoritar və məsləhətverici münasibət göstərmək əvəzinə məktəbin uğurlarını artırmaq və şagirdin inkişafını təmin etmək üçün valideynlərin təlim prosesində fəal iştirakı təmin edilməlidir;
4. Valideyn iclaslarında bütün valideynlərin fəal iştirakı təmin edilməli, hər bir valideynə fikirlərini, rəy və təkliflərini söyləməyə şərait yaradılmalıdır. İdeyalarının hörmətli olduğunu hiss edən valideynlər məktəbdə daha rahat olurlar, məktəbə güvənirlər və uşaqlarına da eyni münasibətin göstərildiyinə əmin olurlar;
5. Valideyn iclaslarının səmərəli təşkili üçün qısa təqdimatlar edilməli və görüşlərin məzmunu zənginləşdirilməlidir;

6. Uşaqlarının təlim nailiyyəti barədə valideynlərə yazılı məlumat verilməlidir. Məktəbdə valideynlər üçün məlumatlandırıcı proqramlar, məsləhət saatları təşkil edilməlidir;
7. Təlim nailiyyətindən asılı olmayaraq hər bir şagirdə şəxsiyyət kimi yanaşılmalıdır. Hər bir şagirdin müsbət fərdi keyfiyyətlərinin üzə çıxarılmasına səy göstərilməlidir. Şagirdlərin təlim nəticələrindən asılı olmayaraq valideynlər ilə mədəni ünsiyyət qurulmalı, valideynlərin cəmiyyət içərisində utanmalarına səbəb olacaq davranışlardan imtina edilməlidir;
8. Məktəblərdə hökm sürən avtoritar iqlimin valideynlərlə görüşlərdə əks olunmaması üçün xüsusi səylər göstərilməlidir, sinifdə valideyn guşəsi yaradılmalı və valideynlər özlərinin dəyərli olduqlarını hiss etməlidirlər;
9. Valideyn iclaslarının gündəliyinin əvvəlcədən valideynlərə göndərilməli və onların təklifləri istənilməlidir. İclaslarda qəbul edilmiş qərarların səmərəli şəkildə yerinə yetirilməsi üçün müəllim və valideynlərdən ibarət işçi qrupu yaradılmalıdır. İclaslarda qəbul olunan qərarların həyata keçirilmə vəziyyəti barədə valideynlər müntəzəm olaraq məlumatlandırılmalıdır;
10. Ailələrin sosial-iqtisadi səviyyəsi, dolanışığı və quruluşları düzgün müəyyən edilməlidir;
11. Məktəb rəhbərliyi və müəllimlər üçün valideynlərlə sağlam ünsiyyət qurmağın vacibliyi və zəruriliyi mövzusunda mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilməlidir.

Müəllim-valideyn əməkdaşlığındakı ziddiyyətlərin aradan qaldırılması üçün müəllim ailəyə bütün xoş niyyətləri göstərməlidir. Valideynlərdə məktəbin fəaliyyəti barədə narahatlıq olmamalıdır. Valideynlər müəllimə etibar etməlidirlər. Bunun üçün müəllimlər valideynlərin iştirakı ilə müəyyən tədbirlər təşkil etməli, məktəbin iş şəraiti və vəzifələri barədə onları məlumatlandırmalıdırlar. Bu cür tədbirlərin təşkili valideynlərin müəllimə inam hissini və sədaqətini artıracaqdır. Məktəbin faydalı bir qurum olduğuna inanan valideynlər məktəbə daha çox maraq göstərəcək və töhfə verməkdə daha istəkli və maraqlı olacaq, məktəbi tərk etməyəcəklər. Yalnız müəllimlərin planlı və fədakar səyi sayəsində bu cür hərtərəfli və perspektivli funksiyalara malik müəllim-valideyn əməkdaşlığı qurula bilər.

Müəllim bütün hallarda, xüsusən, müəllim-valideyn münasibətlərinin qurulmasında nəzakətli olmalı, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Müəllim-valideyn münasibətlərində valideyn nöqteyi-nəzərindən ziddiyyətlərin yaranma səbəblərini izah edin.
2. Müəllim-valideyn münasibətlərində müəllim nöqteyi-nəzərindən ziddiyyətlərin yaranma səbəblərini izah edin.
3. Müəllim-valideyn münasibətlərində ziddiyyətlərin yaranma səbəblərini izah edin.
4. “Qərarlar ağacı” təlim üsulundan istifadə etməklə aşağıda təsvir olunmuş müəllim-valideyn əməkdaşlığında ziddiyyətlərin yaranma səbəblərini müəyyən edin:

**Problem: Bəzi valideynlər müəllimlə əməkdaşlıqda maraqlı deyil.**
- Valideyn övladının təlim nəticələri ilə maraqlanmırsa, uşaq verilmiş ev tapşırıqlarını yarım-yarımçıq edib məktəbə gəlirsə, dərsin bitməsini səbirsizliklə gözləyirlərsə, onda nə etmək olar? Valideyni müəllimlə əməkdaşlığa necə cəlb etmək olar?
- Müəllim-valideyn əməkdaşlığına hansı amillər mane ola bilər? Bunun qarşısını necə almaq olar?
- Müəllim başqa hansı tədbirləri görə bilər?

| **Problemin həlli yollarının müsbət və mənfi cəhətləri** | **Problemin həlli yolları** | | |
|---|---|---|---|
| | | | |
| **+** | | | |
| **-** | | | |
| **Qərar:** | | | |

5. Əlavə mənbələrdən əldə edilən məlumatlar əsasında qruplara bölünərək aşağıdakı mövzularda təqdimat hazırlayın:
   - 1-ci qrup - “Valideynlərin müəllimlə əməkdaşlığa maraq göstərməmələrinin səbəbləri”;
   - 2-ci qrup - “Müəllim-valideyn münasibətlərində valideyn-məktəb assosiasiyalarının rolu”;
   - 3-cü qrup - “Müəllim-valideyn münasibətlərinə ailələrin sosial-iqtisadi vəziyyətinin təsiri”.
6. Ziqzaq təlim üsulundan istifadə edərək verilən mühazirə mətnini təhlil edin.
7. Müxtəlif mənbələrdən topladığınız məlumatlar əsasında “Müəllim-valideyn münasibətlərində yaranan ziddiyyətlərin aradan qaldırılma yolları”na dair təqdimat hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Valideyn və ya onu əvəz edənlərlə əməkdaşlıq zamanı yaranan ziddiyyətlərin aradan qaldırılması yollarını izah edir”.**

1. Müəllim-valideyn münasibətlərində valideyn nöqteyi-nəzərindən ziddiyyətlərin yaranma səbəblərini izah edin.
2. Müəllim-valideyn münasibətlərində müəllim nöqteyi-nəzərindən ziddiyyətlərin yaranma səbəblərini izah edin.
3. Müəllim-valideyn münasibətlərində yaranan ziddiyyətlər hansılardır?
4. Müəllimlərin hansı davranış tərzinə sahib olması səmərəli müəllim-valideyn əməkdaşlığının qurulması üçün vacibdir? Niyə?
5. “Müəllim-valideyn əməkdaşlığında yaranan ziddiyyətlərin aradan qaldırılma yolları” mövzusunda referat yazın.

## ƏDƏBİYYAT SİYAHISI


1. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. (Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti). Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2002, 512 səh.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqogika" nəşriyyatı, 2004, 432 səh.
3. Əliyev R.İ. Məktəbə psixoloji köməyin aktual məsələləri. Bakı, "Nurlan" nəşriyyatı, 2004, 80 səh.
4. İbrahimov A., Əliyev P., Quliyeva S. Ümumtəhsil məktəblərində sinif rəhbərinin valideynlərlə əlaqəli işinin təşkili. (Metodik vəsait). Bakı, "Misri" nəşriyyatı, 2004, 96 səh.
5. Əkbərov N.F. Məktəbdə əxlaq və davranış qaydaları. (Metodik vəsait). 2009, 78 səh.
6. Əkbərov N.F. Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları. (Metodik vəsait). Bakı, "Bərəkət" nəşriyyatı, 2009, 78 səh.
7. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2012, 224 səh.
8. Xəlilov V.C, Məmmədova N.İ. Məktəb-valideyn əlaqələrinin pedaqoji əməkdaşlıq əsasında yenidən qurulması məsələləri. (Metodik vəsait). Bakı, "Mütərcim" nəşriyyatı, 2016, 124 səh.